

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 25 iyul 2026-cı il №49 (3051) https://mod.gov.az Qiymətı 30 qəpik


***Müasir dövrdə dövlətin hərbi qüdrəti təkcə ordusunun şəxsi heyətinin say tərkibi ilə deyil, onun texnoloji imkanları, müasir silahlarla təchiz olunması və hərbi qulluqçuların peşəkarlığı ilə müəyyən edilir. Elm və texnikanın sürətlə inkişaf etdiyi XXI əsrdə döyüş əməliyyatlarının xarakteri də köklü şəkildə dəyişib, ənənəvi müharibə üsulları yüksək texnologiyalara əsaslanan yeni döyüş konsepsiyaları ilə əvəz edilib. Artıq döyüş meydanında üstünlüyü təmin edən əsas amillərdən biri müasir silah sistemlərinin arsenala daxil edilməsi, onların vahid idarəetmə sistemi çərçivəsində koordinasiyalı effektiv istifadəsi və bu silahları peşəkar şəkildə tətbiq edə bilən hazırlıqlı şəxsi heyətin mövcudluğudur.***

## Güclü, müasir və yüksək peşəkarlığa malik Azərbaycan Ordusu təhlükəsizliyimizin etibarlı təminatçısıdır



Ölkəmizdə həyata keçirilən uğurlu dövlət siyasətinin mühüm istiqamətlərindən biri də məhz ordu quruculuğudur. Son illər ərzində Azərbaycan Ordusunun inkişafı istiqamətində həyata keçirilən genişmiqyaslı islahatlar nəticəsində Azərbaycan Ordusu regionun ən güclü ordularından birinə çevrilib. Maddi-texniki bazanın möhkəmləndirilməsi, qüvvə və qoşunların müasir silah və hərbi texnika ilə təchiz edilməsi, idarəetmə sisteminin təkmilləşdirilməsi, döyüş hazırlığının yüksəldilməsi və şəxsi heyətin peşəkarlığının artırılması bu islahatların əsas istiqamətlərini təşkil edir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində müdafiə sahəsinə ayrılan diqqət və qayğı gündən-günə artır. Bu gün Azərbaycan Ordusunun döyüş qabiliyyətinin yüksəldilməsi dövlətin prioritet vəzifələrindən biri kimi müəyyən edilib. Hərbi-texniki təchizatın gücləndirilməsi, müasir silah sistemlərinin alınması, yerli müdafiə sənayesinin inkişaf etdirilməsi və beynəlxalq hərbi əməkdaşlığın genişləndirilməsi istiqamətində atılan addımlar Azərbaycan Ordusunun əməliyyat imkanlarını əhəmiyyətli dərəcədə artırıb.

Azərbaycan Ordusunda döyüş hazırlığı məşğələləri Vətən müharibəsində qazanılan təcrübə və müasir döyüşaparma üsulları nəzərə alınmaqla keçirilir. Hərbi qulluqçular müasir silahların taktiki-texniki göstəricilərini nəzəri məşğələlərdə öyrənməklə yanaşı, səhra şəraitində keçirilən praktiki məşğələlərdə də onların effektiv tətbiqi metodlarını da mənimsəyirlər. Komanda-qərargah təlimləri, taktiki-xüsusi və döyüş atışlı təlimlər, müxtəlif qoşun növlərinin qarşılıqlı fəaliyyəti üzrə keçirilən təlimlər şəxsi heyətin peşəkarlığını daha da artırır. Təlimlər real döyüş şəraitinə maksimum uyğunlaşdırılır, komandir heyətinin qərar qəbuletmə, bölmələrin çevik manevretmə və şəxsi heyətin yüksək dəqiqlikli silahları tətbiqetmə bacarıqları təkmilləşdirilir.

Azərbaycan Ordusunun silahlanmasında yer alan müasir raket-artilleriya kompleksləri, pilotsuz uçuş aparatları, hava hücumundan müdafiə sistemləri, radioelektron mübarizə vasitələri, zirehli döyüş texnikaları və digər yüksək texnologiyalı silah nümunələri ordumuzun döyüş imkanlarını keyfiyyətcə yeni mərhələyə yüksəldib. Bu silah sistemlərinin vahid idarəetmə və kəşfiyyat vasitələri ilə inteqrasiyası döyüş meydanında operativ qərar qəbul edilməsinə, hədəflərin yüksək dəqiqliklə aşkarlanmasına və vaxtında məhv edilməsinə imkan yaradır.

(Ardı 2-ci səhifədə)

## “ADEX 2026” - geri sayım başlayır




Azərbaycanın ən böyük müdafiə tədbirlərindən biri olan 6-cı Azərbaycan Beynəlxalq Müdafiə Sərgisi - “ADEX 2026” 30 sentyabr-2 oktyabr 2026-cı il tarixlərində Bakı Ekspo Mərkəzində keçiriləcək.

“Times of Defence” “X” sosial şəbəkə hesabındakı paylaşımında bildirir ki, “ADEX 2026” dünyanın aparıcı müdafiə sənayesi şirkətlərini, hərbi nümayəndə heyətlərini, hökumət nümayəndələrini və sənaye mütəxəssislərini bir araya gətirəcək. Quru, hava, dəniz, kosmik və qabaqcıl müdafiə texnologiyaları üçün ən son məhsullar və həllər nümayiş etdiriləcək.

Müdafiə sənayesində beynəlxalq əməkdaşlığı gücləndirmək məqsədi daşıyan tədbir texnologiya transferi, strateji tərəfdaşlıqlar və yeni kommersiya imkanları üçün əhəmiyyətli bir platforma təmin edəcək.

Regionun ən nüfuzlu müdafiə sərgilərindən biri hesab edilən “ADEX 2026” Azərbaycanın qlobal müdafiə ekosistemində yüksələn mövqeyini bir daha nümayiş etdirməyə hazırlaşır.

## Qəhrəmanlarımızı doğum günlərində hörmətlə anırıq



Vətən uğrunda canından keçən şəhidlərimiz xalqımızın qürur mənbəyi, Azərbaycanın qəhrəman övladlarıdır. Onların hər biri həyatını dövlətimizin ərazi bütövlüyünün, müstəqilliyinin və suverenliyinin qorunmasına qurban verib. Şəhidlərimizin doğum günləri təkcə bir təqvim tarixi deyil, həm də onların keçdiyi şərəfli ömür yolunu bir daha xatırlamaq, göstərdikləri igidliyi ehtiramla yad etmək üçün əlamətdar gündür.

20-26 iyul tarixlərində doğulan şəhidlərimiz də Vətən sevgisini ən uca zirvədə yaşadan igidlərimizin sırasındadırlar. Onların hər biri xidmət etdiyi dövrdə yüksək vətənpərvərlik nümunəsi göstərərək müqəddəs şəhidlik zirvəsinə yüksəlib. Bu gün onların əziz xatirəsi xalqımız tərəfindən dərin hörmətlə yad edilir, adları Azərbaycan tarixində qürurla yaşayır.

30 ilə yaxın müddətdən sonra Azərbaycan Ordusu xalqımızın Vətən həsrətinə 44 gündə son qoydu. Böyük Qələbə qazanan ordumuz bütün dünyaya səs saldı, digər dövlətlər tərəfindən döyüş taktikalarımız xeyli araşdırıldı. İşğalçı Ermənistan ordusu gücümüzü gözardı edərək həyatının ən böyük səhvlərindən birini etdi. Aradan keçən uzun müddət ərzində Azərbaycan Ordusunun şəxsi heyəti gözlənilən böyük qələbənin eşqi ilə gecə-gündüz durmadan öz üzərlərində çalışaraq yeni-yeni təlimlərdə döyüş bacarıqlarını artırırdılar. Nəhayət, gözlənilən gün yetişdikdə Ermənistan ordusu böyük məğlubiyyətə uğradı. Bu savaşda cəsur, igid Vətən övladları doğma torpaqlarımız uğrunda son damla qanlarına qədər vuruşaraq əsl qəhrəmanlıq nümunəsi göstərdilər.

44 günlük Vətən müharibəsində şücaət göstərən, torpaqlarımızın azadlığı uğrunda son damla qanına kimi döyüşən oğullarımızdan biri də polkovnik-leytenant Soltan Akif oğlu Məmmədovdur. Soltan Yevlax rayonunun Səmədabad kəndində 1981-ci il iyulun 21-də müəllim ailəsində dünyaya göz açıb. Atası Akif Məmmədov Səmədabad kəndində müəllim və məktəb direktoru vəzifəsində işləyib. Çalışdığı məktəbin şagirdlərinin vətənpərvər ruhda yetişdirilməsinə xüsusi diqqət yetirib. Soltan Məmmədovun anası Sümayə xanım da müəllim idi və daim vətənpərvərlik hisslərini öz şagirdlərinə aşılayırdı.

Polkovnik-leytenant Soltan Məmmədov orta məktəbin 7-ci sinfini bitirdikdən sonra 1997-1999-cu illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil alıb. Daha sonra 1999-2003-cü illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (indiki Heydər Əliyev adına Hərbi İnstitut) təhsilini davam etdirib.

(Ardı 5-ci səhifədə)

## Türkiyə hərbçiləri Britaniyada “Eurofighter”in idarəedilməsi təlimi keçəcəklər



***Türkiyə Hərbi Hava Qüvvələri şəxsi heyətinin bir qrupu avqust ayında “Eurofighter” çoxməqsədli qırıcı təyyarələrinin istismarı üzrə təlim keçmək məqsədilə Böyük Britaniyaya səfər edəcək.***

AZƏRTAC xəbər verir ki, bu barədə iyulun 23-də Türkiyə Milli Müdafiə Nazirliyi məlumat yayıb.

Nazirlik uçuş təlim proqramı və texniki personal üçün qabaqcıl təlim daxil olmaqla, Türkiyə Hərbi Hava Qüvvələrinə (HHQ) “Eurofighter” təyyarələrinin tədarükü ilə bağlı razılaşmaları bir daha təsdiqləyib.

“Türkiyə HHQ-nin qrupları qarşıdakı illərdə Böyük Britaniyada təlimlərini davam etdirəcək”, - deyə Türkiyə Müdafiə Nazirliyi bildirib.

Türkiyə 8 milyard funt sterlinq (10,7 milyard dollar) dəyərində 20 ədəd yeni “Eurofighter Typhoon” qırıcı təyyarəsinin alınması üçün Birləşmiş Krallıqla müqavilə imzalayıb.

Bundan əlavə, Ankara Qətər və Omandan əlavə 24 qırıcı təyyarə aldığını elan edib. Qətərdən alınan təyyarələrdən on ikisi “Eurofighter Tranche 3A”nın ən son versiyasıdır.

Omanın modernləşdirmədən sonra qırıcı təyyarələri 2028-ci ildə Türkiyəyə təhvil verməsi gözlənilir.

## Bir silahın tarixi

Min illər boyu silah yalnız döyüş vasitəsi olmayıb. O, dövlətin gücünü, xalqın döyüş ruhunu və hərb sənətinin inkişaf səviyyəsini də göstərib. Azərbaycan torpaqları qədim dövrlərdən igid döyüşçüləri və bacarıqlı silah ustaları ilə tanınıb. Burada hazırlanan silahlar keyfiyyəti, möhkəmliyi və istifadə rahatlığı ilə seçilib. Onların arasında qılınc xüsusi yer tutub. Uzun əsrlər boyu qılınc Azərbaycan döyüşçülərinin ən etibarlı silahlarından biri hesab olunub və hərb tariximizdə dərin iz buraxıb.

Qədim Azərbaycan dövlətlərində döyüşçülər müxtəlif növ silahlardan istifadə edirdilər. Ox və yay uzaq məsafədən düşmənə zərbə vurmağa imkan verirdi. Nizə süvari və piyada qoşunlarının əsas silahlarından idi.

(Ardı 8-ci səhifədə)

# Güclü dövlət, qüdrətli ordu və sarsılmaz iradə




Azərbaycan xalqı tarix boyu çoxsaylı sınaqlardan keçib, hər dəfə öz milli kimliyini və dövlətçilik ənənələrini qorumağı bacarıb. Müasir dövrdə Azərbaycanın əldə etdiyi uğurlar, döyüş meydanında qazandığı qələbələr, xüsusilə işğaldan azad edilmiş torpaqlara Böyük Qayıdış prosesi ölkəmizin yeni güc mərkəzinə çevrilməsinin bariz nümunəsidir. Tarixi qələbələrimiz, ərazi bütövlüyümüzün, suverenliyimizin tam bərpa olunması və sakinlərin doğma yurd-yuvalarına yenidən qayıtması sarsılmaz dövlət-ordu-xalq birliyinin nəticəsidir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Xocavənd rayonunun Quzeyxırman və Güneyxırman kəndlərində yerli sakinlərlə görüşü zamanı səsləndirdiyi fikirlər də məhz bunun göstəricisidir. "Dövlətimiz güclüdür, ordumuz güclüdür, iradəmiz yerindədir" tezisi müasir Azərbaycanın suverenliyinin rəmzidir. Bu üç amil bir-biri ilə sıx bağlıdır.

Azərbaycan bu gün iqtisadi müstəqilliyini tam təmin etmiş, nəhəng regional layihələrin təşəbbüskarı və icraçısı olan bir dövlətdir. Xarici yardımlardan asılı olmayan iqtisadiyyat, daxili sabitlik və xalqın birliyi dövlətin gücünün əsas sütunlarıdır. Siyasi iradə həm dövlət rəhbərliyinin qətiyyətini, həm də xalqın vahid məqsəd ətrafında birləşməsini ifadə edir. Heç bir kənar təsir və diplomatik təzyiq Azərbaycanın milli maraqlarından geri addım atmasına səbəb ola bilməz.

Rəşadətli Azərbaycan Ordusu 30 ilə yaxın davam edən işğala son qoymaq üçün XXI əsrin müharibəsini apararaq tarixi ədaləti bərpa edib. Azərbaycan Ordusu bu gün dünyanın ən modern hərbi güclərindən biridir. Onların qüdrəti sadəcə fərdi rəşadətlə deyil, dövlətin onilliklər boyu həyata keçirdiyi sistemli hərbi strategiya ilə bağlıdır. Azərbaycan Ordusu peşəkar kadrlara, yüksək döyüş hazırlığına, eləcə də dünyanın aparıcı hərbi sənaye komplekslərinə, müasir silahlarına malik güclü ordular sırasına daxildir. Ordumuzun bölmələri, xüsusilə Xüsusi Təyinatlı Qüvvələr və yeni yaradılan Komando əməliyyat hərbi hissələri ən ağır coğrafi və iqlim şəraitində belə istənilən hərbi əməliyyatları uğurla yerinə yetirmək qabiliyyətinə malikdir. Ordumuzun gücünü və qazandığı zəfərləri şərtləndirən əsas amillərdən biri də Azərbaycan əsgərinin mənəvi-psixoloji ruh yüksəkliyi, Vətən sevgisi və qələbə əzmidir.

44 günlük Vətən müharibəsinə qədər olan strateji mərhələlər Prezident İlham Əliyevin vurğuladığı "güclü ordu" və "sarsılmaz iradə" amilləri birdəfəlik akt deyil, illərlə formalaşdırılmış, düşünülmüş hərbi-strateji planın və qətiyyətli proseslərin məhsuludur. 2020-ci ilin Vətən müharibəsinə qədər Azərbaycan Ordusu düşmənin illərdir uydurduğu yalanları alt-üst edən və yekun qələbənin bünövrəsini qoyan bir neçə mühüm sınaqdan keçdi. 2016-cı ilin Aprel döyüşləri Azərbaycan Ordusunun gücünü, texniki təchizatını və döyüş ruhunu həm düşmənə, həm də bütün dünyaya nümayiş etdirən hərbi əməliyyat oldu. Ordumuz Lələtəpə yüksəkliyini, Talış kəndi ətrafındakı strateji nöqtələri və minlərlə hektar ərazini azad etdi. Bu döyüşlər xalqa böyük ruh yüksəkliyi verdi və Böyük Zəfərin ilk müjdəçisi oldu.

2018-ci ildə Naxçıvan Muxtar Respublikası istiqamətində keçirilən Günnüt əməliyyatı nəticəsində Əlahiddə Ümumqoşun Ordu itki vermədən 11 min hektardan çox ərazini, o cümlədən strateji əhəmiyyətli Günnüt kəndini və mühüm yüksəklikləri nəzarətə götürdü. Bu əməliyyat İrəvan-Gorus-Laçın magistral yoluna nəzarət imkanı yaratdı və Azərbaycanın hərbi planlaşdırma qabiliyyətinin nə dərəcədə yüksək olduğunu sübut etdi.

2020-ci ilin iyulunda Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində törətdiyi hərbi təxribat düşmənin əsl niyyətini - Azərbaycanın strateji enerji və nəqliyyat dəhlizlərini təhdid etmək planını üzə çıxartdı. General-mayor Polad Həşimovun və digər hərbçilərimizin şəhadəti xalqı ayağa qaldırdı. Tovuz döyüşləri ölkədə görünməmiş bir milli birlik və həmrəylik yaratdı, minlərlə gənc könüllü olaraq cəbhəyə yollanmaq üçün müraciət etdi. Bu hadisələr yekun hesablaşmanın - Vətən müharibəsinin qaçılmaz olduğunu göstərdi.

Vətən hər birimiz üçün müqəddəsdir. Vətəni qorumaq, onun azadlığı və bütövlüyü uğrunda canından keçmək isə ən böyük qəhrəmanlıqdır. 2020-ci ildə baş verən 44 günlük Vətən müharibəsində Azərbaycan oğulları misilsiz şücaət göstərdilər. Onlar qorxmadan döyüş meydanına atıldılar, Vətən sevgisini hər şeydən üstün tutdular. Torpaqlarımızın azad olunması uğrunda böyük fədakarlıqlar göstərdilər. Onların arasında şəhidlik zirvəsinə ucalan igidlərimiz xalqımızın qürur mənbəyinə çevrildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev şəhidlərimizin xatirəsini hər zaman əziz tutur, onların ailəsinə və sağlamlığını itirənlərə daim diqqət və qayğı göstərir. Öz çıxışında şəhidlərimizin müqəddəs ruhuna ehtiramı ön plana çəkərək vurğulayır: "Şəhidlərimizin ruhu qarşısında bu gün biz yenə də özümüzə və xalqımıza, dövlətimizə and içməliyik ki, istənilən halda biz öz milli ləyaqətimizi qoruyacağıq". Bu and, sadəcə keçmişə hörmət deyil, gələcək nəsillər qarşısında öhdəlikdir. Apreldə, Günnütdə, Tovuzda və 44 günlük Vətən müharibəsində qəhrəmanların ruhu qarşısında verilən söz dövlətin hər bir vətəndaşının üzərinə böyük mənəvi məsuliyyət qoyur. Azərbaycan xalqı öz ərazi bütövlüyünü qanı və canı bahasına bərpa etmiş qalib xalqdır və bu statusu əbədi olaraq qoruyacaqdır.

Ali Baş Komandanın çıxışında "Bundan sonra heç kim heç vaxt bizim xalqımıza zərər vurmayacaq" sözləri dünyaya daha bir qətiyyətli mesaj oldu. Keçmişdə çəkilən acılar, torpaq itkiləri və qaçqınlıq həyatı Azərbaycan xalqına böyük dərslər verib. Prezidentin bu qətiyyətli bəyanatı xalqımıza həm tam arxayınlıq verir, həm də regionda yaşayan qüvvələrə və onların xarici havadarlarına ciddi xəbərdarlıq mesajıdır.

Azərbaycan artıq ötən əsrin 90-cı illərin əvvəlindəki zəif, daxili çəkişmələrə qərq olmuş ölkə deyil. Bu gün reallaşdırılan Böyük Qayıdış proqramı çərçivəsində işğaldan azad olunan digər yurd yerlimiz kimi Xocavəndin Quzeyxırman və Güneyxırman kəndlərinə sakinlərin köçürülməsi torpaqlarımıza əbədi qayıdışın sübutudur. Tarixi döyüşlərdən keçərək formalaşan müasir ordumuz və azad edilmiş ərazilərdə qurulan güclü infrastruktur həm də strateji müdafiə xarakteri daşıyır. Hər bir bərpa edilən kənd dövlətin sarsılmaz qalasına çevrilir.

Prezident İlham Əliyevin Xocavənddəki çıxışı Azərbaycanın milli inkişaf modelinin və hərbi zəfər tarixinin xülasəsidir. Aprel döyüşlərindən başlayan, Günnüt və Tovuz sınaqları ilə bərkiyən hərbi strategiyamız Vətən müharibəsində öz məntiqi zirvəsinə çatdı. Güclü iqtisadiyyat, qüdrətli ordu, Ali Baş Komandanın siyasi qətiyyəti və xalqın sarsılmaz iradəsi ölkəmizi gələcək təhlükələrdən qoruyan ən güclü qaladır. Şəhidlərimizin qanı bahasına qazanılan müstəqilliyimiz, bərpa edilən ərazi bütövlüyümüz və suverenliyimiz bundan sonra heç bir xarici qüvvə tərəfindən sarsıdıla bilməz.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində və sonrakı döyüş əməliyyatlarında inamlı və qətiyyətli qələbələr qazandı. Xalqımızın 30 ilə yaxın torpaq həsrətinə son qoyaraq ərazi bütövlüyümüzü təmin etdi. Ölkəmizin hərbi potensialının gündən-günə gücləndirilməsi və “Dəmir yumruq” fəlsəfəsinin hər an hazır vəziyyətdə saxlanılması xalqımızın təhlükəsizliyinin əbədi zəmanətidir.

Azərbaycan xalqı öz liderinin ətrafında sıx birləşərək daxili gücünə və ordusuna güvənir. İnanırıq ki, bu sarsılmaz birlik sayəsində müstəqilliyimiz daimi, suverenliyimiz əbədi, gələcəyimiz parlaq olacaq. Güclü dövlətimiz, qüdrətli ordumuz və sarsılmaz iradəmiz sayəsində xalqımız öz torpaqlarında əbədi, dinc və ləyaqətlə yaşayacaq, şəhidlərimizin müqəddəs ruhları hər zaman şad olacaqdır.

**Pərvanə İMAMƏLİYEVA**
**“Azərbaycan Ordusu”**

## Serbiya nümayəndə heyəti ölkəmizdə səfərdə olub




Azərbaycan və Serbiya respublikaları Müdafiə Nazirlikləri arasında imzalanmış ikitərəfli hərbi əməkdaşlıq planına əsasən, bu ölkənin Müdafiə Nazirliyinin nümayəndə heyəti ölkəmizə səfər edib.

Müdafiə Nazirliyi xəbər verir ki, Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Hərbi İdarəetmə İnstitutunda keçirilmiş görüş zamanı nümayəndə heyətinə 44 günlük Vətən müharibəsi zamanı qazanılan təcrübədən bəhs edən "Münaqişənin geosiyasi aspektləri" mövzusunda brifinq təqdim olunub. Sonra Azərbaycan Ordusunun hərbi təhsil sistemi və tədris prosesi barədə geniş məlumat verilib.

Görüşdə, həmçinin tərəflər hər iki ölkənin hərbi təhsil sistemi, təhsil müəssisələrinin fəaliyyətləri və bu sahədə tətbiq olunan müasir yanaşmalar barədə qabaqcıl təcrübələrdən danışıb, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı ətraflı fikir mübadiləsi aparıblar.

Sonda qarşılıqlı hədiyyələr təqdim olunub, xatirə fotosu çəkdirilib.

## Güclü, müasir və yüksək peşəkarlığa malik Azərbaycan Ordusu təhlükəsizliyimizin etibarlı təminatçısıdır

(Əvvəli 1-ci səhifədə)



Müasir döyüşlər göstərir ki, informasiya üstünlüyü, pilotsuz sistemlərin tətbiqi, dəqiq koordinasiya və sürətli qərar qəbuletmə qələbəni şərtləndirən əsas amillərdəndir. Elə bu səbəbdən də Azərbaycan Ordusunda keçirilən intensiv döyüş hazırlığı tədbirləri müasir çağırışlara uyğun daim yenilənir, müasir silah və texnikanın istismarı üzrə ixtisas kursları təşkil olunur.

Bu gün Azərbaycan Ordusunun əldə etdiyi uğurlar müasir silahlanma ilə peşəkar şəxsi heyətin vəhdətinin ən bariz nümunəsidir. 44 günlük Vətən müharibəsi, 2023-cü ilin 19-20 sentyabr tarixlərində həyata keçirilmiş antiterror əməliyyatı zamanı nümayiş etdirilən yüksək peşəkarlıq, koordinasiya, operativlik və texnoloji üstünlük ordumuzun müasir hərbi hazırlıq səviyyəsini bütün dünyaya göstərib. Bu uğurlar uzun illər ərzində həyata keçirilən məqsədyönlü islahatların məntiqi nəticəsidir.

Bu gün Azərbaycan Ordusunda müasir silah sistemlərinin alınması və tətbiqi prosesi ardıcıl şəkildə planlı olaraq davam etdirilir. Yeni texnologiyaların mənimsənilməsi, şəxsi heyətin peşə hazırlığının daha da yüksəldilməsi, hərbi təhsil sisteminin müasir tələblərə uyğun inkişaf etdirilməsi və döyüş hazırlığının fasiləsiz təkmilləşdirilməsi ordumuzun gələcək inkişaf strategiyasının əsas istiqamətlərini təşkil edir. Xalqımız əmindir ki, güclü iqtisadi potensiala, müasir silahlanmaya və yüksək peşəkarlığa malik Azərbaycan Ordusu bundan sonra da dövlətimizin təhlükəsizliyinin etibarlı təminatçısı olaraq ölkəmizin müdafiə qüdrətinin daha da möhkəmləndirilməsi naminə qarşıya qoyulan bütün vəzifələri layiqincə yerinə yetirəcəkdir.

**Baş leytenant**
**Elçin İMANOV**
**“Azərbaycan Ordusu”**

*Hərb tariximizdən*

# Qürur tariximizi yaşadan səhifələr

Azərbaycanın sərkərdə oğullarının həyat və döyüş yolları gənc nəslə daima təbliğ olunur. İllər keçsə də, onların keçdiyi şərəfli ömür yolu xalqımızın yaddaşından silinməyərək, nəsildən-nəslə ötürülməkdədir. Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcılarından sayılan, dünya şöhrətli hərb xadimi, ilk azərbaycanlı tam artilleriya generalı Səməd bəy Mehmandarov da belə sərkərdələrimizdəndir. Onun ömür yolu mürəkkəb dövrlərə təsadüf edib. Sovet dönəmində S.Mehmandarov haqqında yazılan ədəbiyyatları araşdırarkən cəmi üç kitaba rast gəldim. Bunlardan birincisi, generalı şəxsən tanıyan keçmiş hərbçi Hacı ağa İbrahimbəylinin 1946-cı ildə qələmə aldığı "Səməd bəy Mehmandarov" adlı kitabıdır. Müəllif oxuculara generalın döyüş yolundan Sovet dövrünün ideoloji tələblərinə cavab verən məzmunda söhbət açıb: "General Mehmandarov birinci imperialist müharibəsi zamanı çox şöhrət qazanmışdı. Şəxsən Mehmandarovu görənlərin hamısı təsdiq edir ki, ona tabe olanlar ondan oddan qorxan kimi qorxar, lakin onu sevər, ona inanardılar. Mehmandarov əsgərlərlə həmişə xoş rəftar edərdi və daim onların qayğısına qalardı".

1918-ci ilin isti avqust günlərinin birində Vətənə dönən iki hərbçi - biri şöhrəti ölkəni dolaşan tam artilleriya generalı S.Mehmandarov, o birisi isə vaxtilə onun tabeliyində xidmət etmiş rotmistr Hacı ağa İbrahimbəylidir. Onlar Tbilisi vağzalında Batumi-Bakı qatarında eyni kupedə yol yoldaşı olurlar. Sonralar H.İbrahimbəyli bu görüşü həyatının ən gözəl, ən xoş anları kimi xatırlayacaqdı: "Mehmandarov çox söhbətcil və çox yaxşı yol yoldaşı imiş. O, mənimlə bəzən rusca, bəzən də azərbaycanca danışırdı, hər sözünü ölçüb biçirdi, fikrini sadə və düzgün ifadə edirdi. Onun danışıq tərzi, səsi, sakit və qəti tonu, özünü sərbəst hiss etməsi göstərirdi ki, bu insan uzun və maraqlı həyat sürmüş, böyük vəzifə sahibi olmuş, şanlı, igid əsgər həyatı keçirmişdi".



1977-ci ildə S.Mehmandarov haqqında rus dilində ikinci kitabça - "General Mehmandarov" dərc edilib. Ehtiyatda olan polkovnik Əli Abbasovun müəllifliyi ilə yazılan kitabda görkəmli generalın döyüş anlarından epizodlar elə canlı şəkildə təsvir edilir ki, sanki oxucular həmin məqamları kino lenti kimi gözləri önündən keçirirlər. Unudulmaz, səvimli müəllimi haqqında, bu kitaba ön söz yazan general-mayor Akim Abbasov (A.Abbasov hərbi təhsil alarkən general S.Mehmandarov onun müəllimi olub) xatirələrini oxucularla bölüşür və onun müdrik çağlarında da qeyri-adi dərəcədə əməksevər olduğunu, çətin peşəsinə ürəkdən bağlandığını belə qələmə alırdı: "Mənə xoşbəxtlik nəsib olmuşdu. Mən üç il rus-yapon və Birinci Dünya müharibəsinin bu tanınmış qəhrəmanının rəhbərliyi altında oxumuşam. Onun leksiyaları elə maraqlı idi ki, onları elə məharətlə oxuyurdu ki, hər bir sözü dinləyicilərin ürəyində özünə yer tapırdı. Bu insanın hərbi işi geniş və dərindən bilməsi insanı heyrətə salırdı".

Üçüncü kitab Azərbaycan hərb tarixinin görkəmli tədqiqatçısı polkovnik-leytenant Şəmistan Nəzirliyə məxsusdur. Onun apardığı tədqiqatlarda hərb tariximizin qaranlıq səhifələrinə aydınlıq gətirilir və çoxlu sayda məqalələri ilə dövrü mətbuatda çıxışlar edir.

...Ötən əsrin ortalarında Qarabağ igidlərinin, Şirvan alayının, Kəngərli döyüşçülərinin, Qazax süvari dəstələrinin yadellilərə qarşı qeyri-adi qəhrəmanlıqlarının şahidi olan xalqımızın böyük mütəfəkkiri M.F.Axundov fəxrlə deyirdi: "Doğmamış Qafqazda analar qorxaq".

Görkəmli hərbi tədqiqatçı Ş.Nəzirlinin Aleksandr Stepanovun "Port-Artur", Trofim Borisovun "Port Arturçular" romanlarından götürdüyü qeydlər gərgin jurnalist tədqiqatının məhsuludur. "1904-cü il dekabrın 16-da komandan Stessel qalanı yaponlara danışıqsız təslim etmək istəyəndə polkovnik S.Mehmandarov və onun zabit heyəti etiraz edərək necə əsəbiləşmişdilər. Səməd bəy Mehmandarov və onun zabit heyəti inad edirdilər ki, qalanı son nəfəsə qədər müdafiə etmək lazımdır. Heç kəs biabırçı vəziyyətdə Rusiyaya qayıtmaq istəmirdi".

1949-cu ildə Yusif Şirvanın iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun mənalı ömür, şərəfli döyüş yolundan bəhs edən "Həzi Aslanov" adlı kitabında da general S.Mehmandarovla bağlı xatirələr oxucuya çatdırılır: "Lənkərana gələn saysız-hasabsız hərbi adamlardan biri də rus ordusunda şöhrət qazanmış topçu general Mehmandarov idi. General Şilavar yolunda olan evində yaşayırdı. O, teztez Böyük bazara, Qalaya, dəniz kənarına çıxar, sadə adamlarla, uşaqlarla söhbət etməyi sevərdi. Bəzən olurdu ki, qoca general əlindəki əsaya söykənə-söykənə Lənkəranın "Naçalnik bağı" adlanan hissəsinə çıxar, çay qırağında gəzərdi. Belə hallarda uşaqlar onun ətrafına toplaşar və general uşaqlarla mehribancasına söhbət edər, onların saysız-hesabsız suallarına cavab verərdi. Həzi və onun yoldaşları generalla belə tanış olmuşdular. Onlar bu adamın əqidəsi, məsləki və vəzifəsi haqqında heç bir təsəvvürə malik deyildilər. General onunla birlikdə cəbhələrdə olmuş, daha yüksək mövqelər tutmuş topçu Ələğa Şıxlinski haqqında uşaqlara çox maraqlı məqamlardan söhbət açardı. Generala olan bu yaxınlıq uşaqlarda qəribə bir əhval-ruhiyyə oyandırmışdı. Artıq uşaqlar ən çox hərbi oyunları sevməyə başlamışdılar...".

Yazıçı əsərində dahi hərb xadimi S.Mehmandarovla gələcəyin tanınmış tank generalı H.Aslanovun görüş səhnəsini belə təsvir edir: "Bir gün Lənkəran çayının sahilində bir dəstə uşaq generalın diqqətini cəlb edir və onlara yaxınlaşıb uşaqlardan böyüyəndə hansı sənəti seçəcəklərini soruşur. Hər kəs öz arzularından danışır. Bu zaman qaragöz, çəlimsiz bir uşaq: - Zabit olacağam, - deyir. Oğlanın inam və qətiyyətlə dediyi sözlər Səməd bəyə xoş gəlir və əlini uşağın çiyninə qoyub deyir ki, zabit olmaq istəyən gərək atı yəhərsiz çapsın. Uşaq susub heç bir söz demir. Yaxınlıqda otlayan kəhərə yaxınlaşır və göz qırpımında belinə sıçrayır. Dörd nala çapan at az sonra generalın yaxınlığında dayanır. Oğlan atdan düşüb soruşur ki, hə, necədir? General onu tərifləyərək deyir ki, əla çapırsan, səndən gələcəkdə yaxşı zabit olacaq. Həqiqətən də Səməd bəy zənnində yanılmamışdı". Həmin o qaragöz, çəlimsiz oğlan sonralar cəsur və şöhrəti ölkələri dolaşan, sərkərdə kimi tanınan tank qoşunları qvardiya general-mayoru, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanov olub. Qürur dolu bu səhifələr xalqımızın qəhrəmanlıq tarixinə, şanlı hərb tarixinə qızıl hərflərlə yazılıb.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

*Vətənpərvərlik*

# Vətənpərvərlik və milli-mənəvi dəyərlər

Hər bir insan üçün ana qədər əziz olan onun Vətənidir. İnsanın doğulduğu yer, eloba, yaşadığı məmləkət onun Vətənidir. Vətən qorunanda Vətən olur. Vətən uğrunda tarix boyu insanlar yadellilərə qarşı vuruşublar. Onlar öz doğma Vətənlərini qorumaq naminə ölümdən belə çəkinməyiblər. İnsanda Vətənə sevgi içdən gəlir. Vətənə sevgi insan üçün sıradan bir sevgi deyil, insan bu sevgi üçün canından keçməyə hazır olur.

Keçmiş sovetlər birliyi çoxumuzun Vətəni idi. O Vətən üçün də xalqımız çox böyük töhfələr vermişdi. Böyük Vətən müharibəsi zamanı yüz minlərlə oğul və qızlarımız cəbhədə faşizmə qarşı vuruşdu. Ön cəbhədə döyüşən əsgərlərin qalib gəlməsi üçün arxa cəbhədə çalışan azərbaycanlılar ölkənin iqtisadiyyatını artırmaq üçün gecə-gündüz zavod və fabriklərdə çalışdılar. Ana və bacılar döyüşçülərə yundan əlcək, corab və başqa geyimlər toxuyub göndərməklə öz Vətənlərinə sadiqliyini ifadə ediblər. Lakin bütün bunlara baxmayaraq sonradan Azərbaycana qarşı ölkə rəhbərliyi səviyyəsində ögey münasibət, ayrıseçkiliklə nəticələndi. Xalqımızın vətənpərvər ziyalıları bu ögey münasibətə cavab olaraq öz xalqına və respublikasına sahib çıxdılar. Xalq onların işığında birləşərək sovet ittifaqının tərkibindən ayrılaraq tarixi müstəqilliyini bərpa etdi.



Sovet dönəmindən Azərbaycana qarşı Ermənistanın haqsız ərazi iddiası müharibə müstəvisinə yüksəldi. Bu dəfə isə xalqımızın qeyrətli oğul və qızları doğma dədə-baba torpaqlarının müdafiəsinə qalxdılar. Erməni silahlı quldur dəstələrinə qarşı əliyalın dayandılar. Vətənpərvər ziyalıların təşəbbüsü ilə Qarabağın və Ermənistanla sərhəd rayonlarının müdafiəsi üçün könüllü batalyonlar yarandı. Onlar düşmənə qarşı qətiyyətlə döyüşürdülər. Bu onların Vətənə - ata-baba yurduna olan sonsuz məhəbbətdən doğan vətənpərvərliyinin nümunəsi idi. Azərbaycan xalqı - hamı bir nəfər kimi doğma Qarabağın müdafiəsinə qalxmışdı. O zaman xalq daha çox bu şüar ətrafında birləşirdi: - Süfrədən pay olar, torpaqdan pay olmaz! Kimliyindən asılı olmayaraq xalq heç kimə torpaq vermək istəmirdi. Bunun üçün son nəfəsinədək vuruşacağını göz önünə almışdı.

Xalqımız Qarabağ uğrunda mübarizəyə qalxmaqla təkcə torpaqlarını müdafiə etmirdi. Burada xalqın milli-mənəvi dəyərləri də tapdalanırdı. Ulu babalarımızın ərmağan etdiyi Vətən torpaqlarına xəyanət etmiş olacaqdı. Onlar zamanında bu torpaqları yadellilərdən qorumaq üçün qəhrəmanlıqla vuruşmuş, şücaətlər göstərmiş və öz adət-ənənələrini qoruyub saxlamışdır. Əcdadlarımızdan gələn qəhrəmanlıq nümunələrini yaşadıb davam etdirmək, bir xalq olaraq dövlətimizi qoruyub yaşatmaq demək idi.

Azərbaycanlılarda özünüdərk, özünümüdafiə, haqq uğrunda mübarizə ruhu həmişə güclü olub. Bu ruh idi xalqımızı haqq uğrunda mübarizəyə aparan. Baxmayaraq ki, düşmənlər ruhumuzu zəiflədib qırmaq istədilər, amma bunu bacarmadılar. Onlar xalqımızın vətənpərvərlik ruhu qarşısında aciz qaldılar. Hətta bu ruhu qırmaq üçün hakimiyyətdə siyasi gərginlik yaratdılar, ölkədə vətəndaş müharibəsinin baş verməsi üçün bütün hiylələrə əl atdılar. Lakin son anda bunların heç biri baş tutmadı. Xalqın müdrikliyi, uzaqgörənliyi və birliyi düşmənlərin bütün planlarını alt-üst etdi.

Qarabağda erməni əsilli sakinlər də yaşadıqları üçün onlar orada yaşayan azərbaycanlıları sıxışdırıb çıxarda bilsələr də, xocalılıları son ana qədər çıxarda bilmədilər. Xocalının müdafiəsində vətənpərvər, qəhrəman oğullar dayanırdılar. Xocalı dörd bir tərəfdən ermənilərin əhatəsində idi. Şəhərin bütün giriş-çıxışını erməni silahlı dəstələri nəzarətə götürmüşdü. Şəhər mühasirədə idi. Lakin yerli əhali son ana qədər doğma evlərini tərk etmədi. Şəhərdə ərzaq, dava-dərman, müdafiəçilər üçün silah-sursat qıtlığı yaranırdı. Yalnız hava xətti açıq olduğu üçün helikopterlə gediş-gəliş mümkün idi. Xocalılıların möhkəm iradəsini görən ermənilər hava yolunu da bağladılar. Daha sonra 1992-ci il fevralın 25-dən 26-na keçən gecə təpədən-dırnağadək silahlanmış ermənilər Xankəndidə yerləşən sovet ordusunun 366-cı motoatıcı alayının köməyi ilə Xocalıya girdilər. Qarşılarına çıxan hər kəsi - qoca, uşaq, qadın demədən hamını güllərbaran etdilər. Ötən əsrin ən böyük faciəsi Xocalıda törədilsə də, ermənilər və onların havadarları nə xocalılıların, nə də Azərbaycan xalqının ruhunu qıra bildi. Əksinə xalq Xocalıya sahib çıxdı. Xalqın mübariz ruhu hər zaman düşməndən qisas almağa, onu öz məsrəfindən döndərməyə çalışdı.

Azərbaycanın mədəniyyət beşiyi sayılan Şuşa şəhəri də işğal olundu. Qarabağda və Ermənistanla həmsərhəd rayonlarda baş verən uğursuzluqların başında ölkədə siyasi hakimiyyətinin yarıtmaz fəaliyyəti dayanırdı. 1993-cü ildə Ulu Öndər Heydər Əliyev xalqın təkidi ilə siyasi hakimiyyətə qayıdandan sonra xalqda vətənpərvərlik ruhu artdı. "Vətən uğrunda!", "Qarabağ uğrunda!", "Heydər Baba yolunda!" şüarları ilə xalqın vətənpərvər oğul və qızları cəbhəyə yollandılar. Rayonlarda, kəndlərdə analar, bacılar oğullara, qardaşlara isti geyimlər, ərzaqlar toplayıb, döyüşən oğullara arxa, dayaq olurdular. İnsanların bu cür vətənpərvərlik ruhu təkcə döyüşmək üçün deyildi. Bu ruhun içində milli-mənəvi, əxlaqi, insani dəyərlər cəmləşirdi. Xalq öz dəyərlərinə sahib çıxmaq üçün liderin ətrafında sıx birləşib dövlətçilik ənənələrini qoruyurdu.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin əmri ilə 2020-ci il sentyabrın 27-də başlayan əks-hücum əməliyyatı da xalqın iradəsinə əsaslanmış uğurlu bir əməliyyat idi. Xalq öz rəhbəri ətrafında birləşdi. Erməni işğalı altında olan torpaqları azad etmək üçün səfərbər olundu. Cəmi 44 gün davam edən müharibədə Azərbaycan xalqı Zəfər qazandı. Erməni işğalına son qoyuldu. Xalqın vətənpərvərliyi sonuncu müharibədə tam təfsilatı ilə təsdiq olundu. Söz yox ki, xalqımız durduqca vətənpərvərlik ruhu da duracaq.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

*Tibb xidməti*

# Travmaların qarşısını almaq, onları müalicə etməkdən daha asandır

Hərbi qulluqçuların gündəlik fəaliyyətində fiziki hazırlığın rolunu mütləq qeyd etməliyik. Fiziki hazırlıq şəxsi heyətin həm döyüş qabiliyyətinin artırılmasına, həm də sağlamlığının möhkəmləndirilməsinə kömək edən əsas amillərdən biridir. İdmanla mütəmadi məşğul olmaq onların döyüş qabiliyyətinə də müsbət təsir göstərir. İdmanla məşğul olan hərbi qulluqçu dözümlü, cəsur olur, eləcə də verilən tapşırıqları daha çevik və dəqiq yerinə yetirir. Bu gün ordumuzun bütün bölmələrində şəxsi heyətin fiziki hazırlığının möhkəmləndirilməsi məsələsi rəhbərlik tərəfindən diqqətdə saxlanılır. Ordumuzun bütün bölmələrində müasir idman avadanlıqları ilə təchiz olunmuş trenajor otaqları, idman şəhərcikləri fəaliyyət göstərir, şəxsi heyət arasında müxtəlif idman növləri üzrə fərdi və kütləvi yarışlar keçirilir.

Təbii ki, idman hərəkətləri zamanı travmaların olması qaçılmazdır. Bəzən məlumatsızlıqdan insanlar idman zamanı aldıqları travmaların fərqinə varmır, zamanında buna əhəmiyyət vermirlər. Bu isə sonradan ciddi problemlərə gətirib çıxara bilər. Bu travmalar hər yaş və səviyyəli idmançıda baş verə bilər, ani hərəkətlər, yıxılmalar, toqquşmalar və ya həddindən artıq yüklənmələr kimi müxtəlif səbəblərdən meydana gələ bilər. İdman fəaliyyətləri zamanı qarşılaşılan zədələnmələr, fiziki sağlamlığa ciddi təsir göstərə bilən və peşəkar yanaşma tələb edən hallardır. Bu zədələnmələrin vaxtında müəyyən edilməsi müalicə prosesinin uğuru üçün kritik əhəmiyyət kəsb edir.

Hər bir idman növünün özünəməxsus spesifik travmaları olur və onların hər birinə yanaşma fərqli olur. Günümüzdə futbola maraq böyük olduğuna görə, daha çox bu oyun zamanı yaranılan travmalara rast gəlirik. Hərbi qulluqçular arasında da belə hallar az da olsa müşahidə olunur. Bəzən futbol zamanı travma alan şəxs buna ciddi əhəmiyyət verməyərək oyuna davam edir. Bu çox yanlış haldır. Travma alan kimi dayanmaq lazımdır. Davam edərkən zədə daha da böyüyür. İdman zamanı ağrı hiss olunursa, dayanmaq, həkimə müraciət etmək, müəyyən reabilitasiya müddəti keçmək lazımdır. Ağrı olan sahəyə tez bir zamanda buz qoymaq gərəkdir. Buz qoyulan sahədə qan dövranı zəiflədiyi üçün daha az travmatik sayılır.

Hər şeydən əvvəl bilmək lazımdır ki, istənilən idman növündə isinmə-gərilmə hərəkətləri etmədən birbaşa idmana başlamaq düzgün deyil. Günün on saatını futbol oynayan futbolçular belə isinmə hərəkətləri olmadan oyuna başlamırlar. Vətərlər, bağlar, əzələlər müəyyən bir vərdiş halına gəlməlidir ki, ondan sonra onları daha ağır yükə salmaq mümkün olsun. Birdən-birə onlara lazım olmadan artıq yük verəndə əzələlər, bağlar dartılır. Bu travmalar zamanı ilkin əlamət ağrıdır. Bundan sonra ikinci əsas əlamət həmin nahiyənin şişməsidir.

Onu da qeyd edim ki, bu gün qaçışla məşğul olanların da sayı çoxdur, lakin onların bununla bağlı yanlış vərdişləri kifayət qədərdir. Qaçış zamanı geyinilən ayaqqabının, yerin də əhəmiyyəti var. Asfaltda altlığı nazik olan ayaqqabı ilə qaçmaq pəncənin zədələnməsinə səbəb ola bilər. Qaçış zamanı sahənin dəyərləndirilməsi olduqca əhəmiyyətlidir. Eyni zamanda, buna müvafiq olaraq ayaqqabı seçimi olmalıdır. Bütün yük ayaqlara düşdüyü üçün qaçış olan yerin sərtliyinə uyğun olaraq ayaqqabılar seçmək lazımdır. Çəkisi ağır olanlara qaçmaq məsləhət deyil, bu zaman dizlər travma alır. Belə şəxslərin qaçması yox, gəzməsi lazımdır. Burada çəki çox önəmlidir. Kök adamlar qaçanda dizlərə böyük ziyan vermiş olurlar, oynaqlar zədələnir. Kiçik addımlarla yerisələr yaxşıdır. Qaçan zaman əzələ yoruldusa, dayanmaq, dincəlib yenidən başlamaq lazımdır.



İdman travmalarının əzələ və bağ dartınmaları, sınıqlar və oynaq çıxmaları, spesifik travmalar - menisk, tendinit və bursit kimi növləri var. Bu dəfə axill vətərinin qopmasından danışacağam.

İnsan bədənində mövcud olan ən qüvvətli əzələ (400 kq-a qədər yükə davamlıdır) vətərdir. Vətərin yuxarı ucu başlanğıcını baldırın ikibaşlı əzələsinin üçbaşlı əzələnin bir hissəsi olan kambalayabənzər əzələyə keçdiyi yerdən götürür. Onun aşağı ucu isə daban sümüyünün arxa səthindəki qabarcığa bağlanır.

Troya müharibəsi qəhrəmanı Axill şahzadə Paris tərəfindən təsadüfən sol dabanından zəhərli oxla vurularaq öldürülmüşdür. Buna görə ayaq dabanındakı müvafiq vətərə "Axilles vətəri" adı verilmişdir. Axill vətərinin tendiniti (iltihabı) və yırtığı idman zamanı ən çox rast gəlinən patologiyalardandır.

Futbol, basketbol, voleybol oyunlarında, uzuna tullanma və qaçışlarda axill vətərinin qopması halları ilə tez-tez rastlaşırıq. Qeyd etdiyimiz kimi, axill vətəri vücudun ən qalın və ən güclü vətəridir. Lakin bu vətərin bu qədər güclü olmasına baxmayaraq, həm də üzərinə çox böyük yük düşür. Buna görə də əgər idman zamanı, xüsusilə də top oyunları zamanı düzgün şəkildə öncədən isinmə hərəkətləri etməyib anidən oyun meydançasına çıxılarsa, axill vətərinin qopma riski daha yüksək olur. Bunun üçün idmana başlamazdan öncə ayağımızın arxa tərəfində axill vətərinin gərilmə idmanlarını icra edib onun elastikliyini, sərbəstliyini təmin etmək lazımdır. Bundan sonra meydançaya çıxmaq lazımdır. Əks təqdirdə oyun zamanı ani manevrləri həyata keçirərkən axill vətəri yetərincə elastik olmadığına görə qopma ilə qarşılaşır. Qopma bilir və bu qopma zamanı xəstə ayağının arxasından sanki kiminsə onu təpiklə vurduğunu zənn edir. Əslində isə bu axill vətərinin qopması üçün xarakterik bir hissdir və bu hisslə yanaşı olaraq xəstə dabanının arxasından sanki bir partlama səsi eşidir. Bu isə axill vətərinin zədələnməsinin ikinci bir səs şəklində əlamətidir. Axill vətərinin qopmalarında qısa zamanda həkimə müraciət etmək lazımdır. Bu hallar zamanı əsas müalicə cərrahi üsuldur. Əməliyyat zamanı axill vətərinin qopmuş hissələri uc-uca tikilir. Bəzi hallarda isə ilk başda tərəfimizdən qapalı şəkildə həyata keçirilən əməliyyat sonradan artıq böyük rekonstruksiyalarla əvəz olunur. Əməliyyatdan sonra həmin ətrafa gips sarğısı qoyulur. 6 həftə sonra gips sarğısı açılır, fizioterapiya təyin edilir. Xəstə 6 ay sonra tam aktiv həyat tərzinə davam edir.

İdman zədələrinin qarşısını almaq, onları müalicə etməkdən daha asandır. Sağlam bir idman həyatı üçün bəzi qaydalar - məşqdən əvvəl və sonra əzələləri hazırlayan və rahatladan hərəkətlər edilməlidir, bağ və əzələ toxumasını möhkəmləndirən spesifik məşqlərə yer verilməlidir, hər bir idman hərəkəti təlimatlara uyğun və düzgün texnika ilə icra olunmalıdır, dizlik, qolbaq və digər dəstəkləyici vasitələrdən istifadə edilməlidir.

Nəticə olaraq, idman travmaları ciddi yanaşma tələb edən zədələnmələrdir. Erkən diaqnoz və peşəkar müalicə sayəsində bu problemlərdən tam sağalmaq və idmana təhlükəsiz şəkildə geri dönmək mümkündür.

**Tibb xidməti**
**polkovnik-leytenantı**
**Rahib CƏBRAYILOV**
**Müdafiə Nazirliyinin**
**Baş Klinik Hospitalı**

*Medallı igidlərimiz*

# "Hər yeni gün yeni məsuliyyətdir"

İllər keçdikcə insanın hərbi xidmətə baxışları dəyişir. Qazanılan təcrübə, yerinə yetirilən tapşırıqlar və çiyin-çiyinə xidmət etdiyin insanlar seçdiyin peşəyə münasibəti formalaşdırır. "N" hərbi hissəsində gizir Mehdi Cabbarov ilə onun xidmət yolundan danışarkən bunu hiss etmək çətin deyildi. Söhbət zamanı o, sadəliyi və təmkinliyi ilə seçilir, diqqəti daha çox hərbi xidmətin məsuliyyətinə yönəldirdi.

1982-ci ildə Ucar rayonunun Bərgüşad kəndində anadan olan Mehdi Məhəmməd oğlu Cabbarov uzun illərdir Azərbaycan Ordusunun sıralarında xidmət edir. Hərbi peşəni seçdiyi gündən bu günə qədər müxtəlif bölmələrdə xidmət edib, üzərinə düşən tapşırıqları məsuliyyətlə yerinə yetirməyə çalışıb. Peşəkarlığı və hərbi intizamı ilə xidmət etdiyi kollektivdə etimad qazanıb. Nümunəvi xidmətinə görə komandanlıq tərəfindən müxtəlif mükafatlara layiq görülüb. 2020-ci ilin Vətən müharibəsində xidmətlərinə görə isə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilib. Həmsöhbətim 2023-cü ilin 19-20 sentyabr tarixlərində həyata keçirilən antiterror əməliyyatında da iştirak edib.



Hərbi xidmət insanın həm bilik və bacarıqlarını, həm də xarakterini formalaşdırır. Bu yol daim öyrənməyi, intizamlı olmağı və istənilən şəraitdə məsuliyyət hissini ön planda saxlamağı tələb edir. Hərbi qulluqçumuz qeyd etdi ki, xidmət yolunu məhz bu prinsiplər üzərində qurub. "Azərbaycan Ordusunda xidmət edən hər bir hərbi qulluqçunun fəaliyyəti vahid məqsədə - ölkəmizin qüdrətinin artmasına, müdafiə qabiliyyətinin möhkəmləndirilməsinə xidmət edir. Bu baxımdan uzun müddət ordu sıralarında xidmət edərək təcrübə qazanan hərbçilərin rolu xüsusi əhəmiyyət daşıyır. Onların peşəkar bilik və bacarıqları gündəlik xidmətdə, döyüş hazırlığının yüksəldilməsində və gənc hərbi qulluqçuların formalaşmasında mühüm rol oynayır".

Mehdi Cabbarov söhbət zamanı qeyd etdi ki, ilk baxışdan elə görünə bilər ki, hərbi xidmətdə əsas məsələ verilən tapşırığı yerinə yetirməkdir. "Əslində isə məsuliyyət bununla bitmir. Daşıdığın mundirə, seçdiyin peşəyə və sənə göstərilən etimada hər gün cavabdeh olduğunu dərk edirsən. Məncə digər vərdişlərlə yanaşı, hərbi xidmət insana, ilk növbədə, bunları öyrədir".

Hərbi qulluqçumuzun fikirlərində diqqəti çəkən digər bir məqam isə onun peşəkarlığa olan münasibəti idi. Mehdi Cabbarov bildirdi ki, hərbi xidmətdə təcrübə təkcə keçən illərlə ölçülmür. "İllər keçib gedir, amma əsas odur ki, həmin illər sənə nə qazandırır. Hər gün öyrənməli, öz üzərində çalışmalı və döyüş hazırlığını artırmalısan. Hərbi xidmət hər zaman inkişafı, peşəkarlığın təkmilləşdirilməsini tələb edən peşədir".

2020-ci ilin Vətən müharibəsi Azərbaycan Ordusunun şəxsi heyəti üçün həm peşəkar hazırlığın, həm də mənəvi dözümlülüyün sınağı oldu. Müxtəlif istiqamətlərdə gedən döyüş əməliyyatlarında hər bir hərbi qulluqçu kimi, gizir Mehdi Cabbarov da üzərinə düşən tapşırıqların yerinə yetirilməsində bacarıq və fədakarlıq göstərib. Təcrübəli gizirimiz müharibədən sonra da xidmətini eyni məsuliyyətlə davam etdirib. Ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunması istiqamətində həyata keçirilən antiterror əməliyyatında da iştirak edərək qarşıya qoyulan vəzifələrin vaxtında və dəqiq icra olunmasına çalışıb.

Söhbət zamanı Mehdi Cabbarov Vətən müharibəsi ilə bağlı xatirələrini də bölüşdü. Döyüş əməliyyatları haqqında danışarkən bəzi məqamların onun yaddaşında xüsusi yer tutduğu hiss olunurdu. Bunlardan biri də bölük komandiri baş leytenant Əfşan Hüseynovun şəhid olması xəbəri idi. Mehdi həmin günləri unuda bilmir. Bu barədə danışarkən sanki həmin anları gözlərinin qarşısında yenidən canlandırırdı. "Bu, mənim üçün çox ağır xəbər oldu. Uzun müddət birlikdə xidmət etdiyim bölük komandirinin şəhid olması xəbəri məni çox sarsıtdı. Belə anlarda insan hisslərini öz daxilində yaşayır. Şəhid xəbərlərinin gəlməsinə baxmayaraq ruhdan düşməməyə, döyüşləri davam etdirməyə, onların qisasını döyüş meydanında almağa can atırdıq. Düşünürəm ki, həmin günlər, torpaqlarımızın azadlığı, ərazi bütövlüyümüz və suverenliyimiz uğrunda döyüşlərdə şəhid olan igid silahdaşlarımızın əziz xatirəsi mənim və xidmət yoldaşlarımın yaddaşında əbədi qalacaq".

Mehdi Cabbarov hərbi xidmət illərində qazandığı təcrübəni birlikdə xidmət etdiyi insanlarla və formalaşan qarşılıqlı etimadla əlaqələndirir. Onun fikirlərində tez-tez səslənən "məsuliyyət", "intizam" və "etimad" anlayışları peşəsinə münasibətini tam aydın şəkildə ifadə edirdi.

Söhbətimizin sonunda xidmət illərinin ona qazandırdığı ən vacib keyfiyyətin nədən ibarət olduğunu soruşanda hərbi qulluqçumuz dedi: "Hər yeni gün yeni məsuliyyətdir. Çalışırsan ki, üzərinə düşən vəzifəni düzgün yerinə yetirəsən, xidmət illərində və döyüşlərdə qazandığın təcrübəni gənc hərbi qulluqçularla bölüşəsən və göstərilən etimadı doğruldasan. Mənim üçün xidmətin əsas amalı budur".

Bu gün gizir Mehdi Cabbarov kimi peşəsinə məsuliyyətlə yanaşan, qəlbi Vətən sevgisi ilə döyünən minlərlə hərbi qulluqçumuz qalib Azərbaycan Ordusunun sıralarında öz çətin və şərəfli xidmətlərini uğurla davam etdirir. Əminik ki, belə vətənpərvər gənclərimiz sayəsində dövlətimiz öz qüdrətini daha da artıracaq, ordumuz bundan sonra da ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin təminatçısı olacaqdır.

**Emil MURADLI**
**"Azərbaycan Ordusu"**

*Heç kim unudulmur*

# Qəhrəmanlarımızı doğum günlərində hörmətlə anırıq



(Əvvəli 1-ci səhifədə)

Buranı bitirdikdən sonra 2003-cü ildən Azərbaycan Ordusunun sıralarında xidmətə başlayıb. Uğurlu xidmət yolu keçən təcrübəli zabit 2019-cu ildə tabor komandiri vəzifəsinə təyin olunub. Polkovnik-leytenant Soltan Məmmədov 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi zamanı ön sıralarda döyüşə atılaraq Azərbaycan Ordusunun cərgələrində xidmət edən yüksək rütbəli zabitlərdən əsgərinə qədər döyüşlərdə hər kəsin bir yumruq olduğunu sübut edib. O, Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə igidliklə döyüşərək oktyabrın 10-da şəhid olub.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən, ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni və "Vətən uğrunda", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

* * *

İkinci Qarabağ müharibəsində döyüşənlərdən biri də kapitan Fərid Fazil oğlu Dursunovdur. O, 1986-cı il iyulun 26-da Qax rayonunun Qorağan kəndində anadan olub. 1992-2003-cü illərdə Qax rayonu Səfa Rəhimov adına Qorağan kənd tam orta məktəbində təhsil alıb. Məktəbi bitirdikdən sonra indiki Heydər Əliyev adına Hərbi İnstituta qəbul olaraq 2008-ci ildə oranı bitirib. Fərid Dursunov ölkə xaricində təlimlərdə iştirak edib.

Kapitan Fərid Dursunov xidməti dövründə çoxsaylı medal və təltiflərə layiq görülüb. 44 günlük Vətən müharibəsi zamanı Murovdağ istiqamətində vuruşub. O, sentyabrın 29-da həmin istiqamətdə gedən qızğın döyüşlər zamanı şəhid olub, nəşi Qax rayonunun Qorağan kəndində dəfn edilib.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən, kapitan Fərid Dursunov ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni, "Hərbi xidmətlərə görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

Şəhidimiz haqqında bir maraqlı faktı da qeyd edək. Belə ki, "Qalatasaray" Futbol Klubunun azarkeşlərindən olan Fərid döyüşlərə qatılmazdan əvvəl "şəhid olsam, məzarıma Azərbaycan bayrağı ilə birgə Qalatasaray bayrağını da asın", - deyə vəsiyyət edib. Şəhidin vəsiyyətinin sosial mediada ictimailəşdirilməsindən sonra "Qalatasaray" İdman Klubu özünün rəsmi "X" hesabında Fərid Dursunovun məzarının fotosunu paylaşaraq başsağlığı verib. Ardınca isə "Qalatasaray"ın "başkan yardımcısı" Yusuf Günay şəxsən əlaqə saxlayaraq şəhidin atası Fazil Dursunova Türkiyə xalqı adından başsağlığı verib.

* * *

Qəhrəmanlıq salnaməmizə adını yazdıran, şəhidliyi ilə xalqımızın qəlbində əbədiyyət qazanan ərlərimizdən olan leytenant Emin Rəşadət oğlu Sadiqov 21 iyul 1998-ci ildə Naxçıvan Muxtar Respublikası Şahbuz rayonunun Şahbuz kəndində anadan olub.



2004-cü ildən Naxçıvan şəhər Cəlil Məmmədquluzadə adına 2 nömrəli tam orta məktəbdə təhsil alıb. 8-ci sinfi bitirdikdən sonra Emin Sadiqov 2012-ci ildə Heydər Əliyev adına Hərbi Liseyə qəbul olub və 3 il burada təhsil aldıqdan sonra 2015-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) qəbul olub. 2019-cu ildə buradan məzun olan Emin "N" hərbi hissəsinə təyinat alıb.

İkinci Qarabağ müharibəsində leytenant Emin Sadiqov Füzuli istiqamətində döyüşlərə qoşulub. Ürəyini qisas hissi bürüyən gənc zabit son damla qanına qədər igidliklə döyüşüb. O, oktyabrın 26-da şəhidlik zirvəsinə ucalıb. Nəşi doğulduğu Şahbuzun kənd qəbiristanlığında dəfn olunub.

Emin Rəşadət oğlu Sadiqov ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni, "Döyüşdə fərqlənməyə görə", "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

* * *

Böyük Qələbəmizlə başa çatan müharibədə Vətən uğrunda



canını qurban verən şəhid gizir Sahib Musa oğlu Musayev 1984-cü il iyulun 21-də Qax rayonunun Şotavar kəndində anadan olub. Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin (XTQ) gizir olan Sahib Musayev 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi zamanı Cəbrayılın, Hadrutun, Qubadlının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Yaxınları tərəfindən cəsur və mərd insan kimi tanınan Sahib döyüş meydanında da elə bu keyfiyyətləri ilə yoldaşlarının yaddaşında silinməz izlər qoyub. Noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhidlik zirvəsinə ucalıb.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən, gizir Sahib Musayev ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və başqa medallarla təltif edilib.

* * *

Sentyabrın 27-də başlayan İkinci Qarabağ müharibəsində qəhrəmanlıq dastanına adını yazdıran hərbçilərdən biri də müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Sahil Sərvan oğlu Rəsulovdur. O, 24 iyul 1999-cu ildə Goranboy rayonunun Səfikürd kəndində dünyaya göz açıb.

Sahil xidmət etdiyi bölmədə bacarığı, nümunəvi xidməti və yüksək mənəvi keyfiyyətləri ilə seçilib. Əsgər S.Rəsulov 2020-ci il sentyabrın 27-də başlayan 44 günlük Vətən Müharibəsində iştirak edərək döyüş meydanında şücaət göstərib. O, Tərtər rayonunun Suqovuşan kəndi istiqa-



mətində döyüş tapşırığını yerinə yetirən zaman şəhid olub. Nəşi oktyabrın 11-də Goranboy rayonunun Səfikürd kəndində dəfn olunub. Ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Laçının azad olunmasına görə" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

* * *

Vətən müharibəsində yaşından asılı olmayaraq hər bir hərbçi döyüşən yüksək rütbəli zabitlərdən nümunə götürərək qorxmadan irəli atılır, illərin qisasını alaraq adlarını qəhrəmanlıq tariximizə həkk edirdi. Elə bu oğullarımızdan biri də Nail Müzəffər oğlu Abakarovdur. "Gəzməyə qərib ölkə, ölməyə Vətən yaxşı" deyib atalarımız. Nailin qısa lakin şərəfli həyatı məhz bu atalar sözünün bir daha təsdiqi olub. O, 2001-ci il iyulun 24-də Rusiya Federasiyasının Kazan şəhərində anadan olub. İlk təhsilini 2009-2011-ci illərdə Kazan şəhərindəki 79 saylı İnternat Liseyində alır. Daha sonra Azərbaycana gələn Nail 2011-2018-ci illərdə Zaqatala şəhərində yerləşən İnternat Liseyində, 2018-2020-ci illərdə isə adı çəkilən şəhərdə N.Hüseynov adına 2 nömrəli tam orta məktəbdə təhsilini davam etdirib. Orta təhsilini bitirdikdən sonra 2020-ci ilin iyul ayından Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmətə yollanır.

Nail Abakarov 2020-ci il sentyabrın 27-də Azərbaycan Ordusu tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması naminə başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən ağır və şiddətli döyüşlər zamanı oktyabrın 2-də şəhidlik zirvəsinə ucalıb.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən, Nail Abakarov ölü-



mündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Laçının azad olunmasına görə" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

* * *

Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda döyüşərək şəhadətə yüksələn igidlərimizdən biri də əsgər Anar Həmzə oğlu Vəliyevdir. 21 iyul 2002-ci ildə Qazax rayonunun Orta Salahlı kəndində doğulan Anar 2008-ci ildə Səməd Hacıyev adına Orta Salahlı kənd tam orta məktəbində təhsil almağa başlayıb. 2017-ci ildə həmin məktəbin IX sinfini bitirib. 23 iyul 2020-ci ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən hərbi xidmətə çağırılıb. Vətən müharibəsi başlayanda ön sıralarda döyüşərək Azərbaycanın nisgili olan Qarabağı düşmən əsarətindən azad etmək uğrunda savaşıb. Əsgər Anar Vəliyev oktyabrın 11-də Tərtər rayonunun Talış kəndi və Suqovuşan yaşayış məntəqəsinin azad olunması uğrun-



da gedən şiddətli döyüşlərdə iştirak edərkən şəhid olub. O, doğulduğu Orta Salahlı kənd qəbiristanlığında dəfn edilib. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə Anar Vəliyev ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Laçının azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif olunub.



* * *

44 günlük Vətən müharibəsində xalqımıza Böyük Qələbə sevincini yaşadan, bu müqəddəs yolda canını qurban verən şəhidlərdən biri də əsgər Kənan Natiq oğlu Şahbazovdur. Kənan 23 iyul 2002-ci ildə Masallı rayonunun Kəlbəhüseynli kəndində anadan olub. 2008-ci ildə Suraxanı rayonu, Hövsan qəsəbəsi 76 nömrəli məktəbin birinci sinfinə daxil olub. 2010-cu ildən Kənan valideynlərinin işi ilə əlaqədar Rusiya Federasiyasının Kazan şəhərinə köçərək orta təhsilini orada davam etdirib. Sonra yenidən Bakı şəhərinə qayıdaraq Xətai rayonunda yerləşən 138 nömrəli tam orta məktəbdə təhsil alıb.

İdmana marağı olan Kənan Şahbazov qaydasız döyüşlə məşğul olub. Bu sahədə bir çox uğurlar əldə edərək ölkə və Rusiya Federasiyasında təşkil olunan yarışlarda diplom və medallara layiq görülüb. 2019-cu ildə Rusiya Federasiyasının Kazan şəhərində yerləşən "Açıq Federal Universitet"in hüquqşünaslıq fakültəsinin əyani şöbəsinə daxil olub, həmin fakültənin birinci kursunu bitirdikdən sonra 2020-ci ildə təhsilini qiyabi davam etdirib.

2020-ci ilin iyulunda hərbi xidmətdə çağırılıb. Azərbaycan Ordusunun əsgəri olan Kənan Şahbazov İkinci Qarabağ müharibəsinin iştirakçısı olub. Kəlbəcər rayonu istiqamətində gedən döyüşlərdə fəallıq göstərib. Kənan Şahbazov sentyabrın 28-də döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində aldığı qəlpə yarasından həlak olub.

Şəhidin nəşi oktyabrın 2-də doğulduğu Masallı rayonunda torpağa tapşırılıb. Kənan Natiq oğlu Şahbazov ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə 3-cü dərəcəli "Rəşadət" ordeni, "Kəlbəcərin azad olunmasına görə", "Vətən uğrunda" və "Cəsur döyüşçü" medallarına layiq görülüb.

Şəhidlər unudulanda ölürlər. Onların əziz xatirəsini daim dərin ehtiramla yad etməli, müstəqilliyimiz, ərazi bütövlüyümüz və suverenliyimiz uğrunda göstərdikləri igidliyi, fədakarlığı təbliğ etməliyik. Bu şərəfli missiya hər birimiz üçün mənəvi borcdur. Gənclərimiz, eləcə də gələcək nəsillər igidlərimizi tanımalı, tanıtmalı, onların Vətən sevgisini nümunə götürməli və canları bahasına əmanət etdikləri dövlət və dövlətçiliyimizə qürurla, inamla, sədaqətlə xidmət etməlidirlər.

**Hüsniyyə NƏSİROVA**
**"Azərbaycan Ordusu"**

# Rəqəmsal dünya: psixoloji asılılıq, yoxsa...?

**_“Mən danışmağa başladığım yarım dəqiqə belə olmadı. UNİCEF-in rəqəmlərinə görə bu qısa zamanda 60 uşaq internetlə tanışmış olur və sərhədsiz bir dünyanın qapılarından içəri addım atır. Uşaqlarımızın ekran vasitəsilə nəyə nə qədər məruz qalacağı da yalnız qazanc məqsədli şirkətlərin ümidinə buraxılmamalıdır” sözlərini Türkiyənin birinci xanımı Əminə Ərdoğan NATO Zirvəsi çərçivəsində Çankaya Köşkündə dövlət və hökumət başçılarının həyat yoldaşları ilə bir araya gəldiyi “Uşaqlar, Texnologiya və Təhlükəsizlik: Gələcək Nəsli Qoruyaq” mövzusunda keçirilən tədbirdəki çıxışında deyib. Rəqəmsal dövrün gətirdiyi imkanlarla yanaşı, uşaqların qarşılaşdığı gizli təhlükələrə diqqət çəkən bu görüşdə mühüm mesajlar verilib. “Ekran bizi izləyir” uşaqların təkcə ekrana baxmadığını, ekranın da onları izlədiyini və alqoritmlər vasitəsilə gənclərin düşüncə tərzinin manipulyasiya edildiyi bildirilib. Aparılan araşdırmalara görə gənclərin üçdəbirinin artıq insanlardan çox süni intellektlə ünsiyyətə üstünlük verdiyini təəssüf hissi ilə qeyd edilib. Süni intellekt yeniyetmələrin sirdaşı və məsləhətçisinə çevrilib. Bu halda sual yaranır: “Uşaqlarımızın ağlını və təhsilini kim idarə edir?”_**

Həyatımızda rəqəmsal texnologiyaların rolu gündən-günə artır. Yeniyetməlik dövrü bioloji və psixoloji inkişaf mərhələsidir. Açıq havada aktiv fiziki fəaliyyətlə məşğul olmaq əvəzinə, yeniyetmələr günün böyük hissəsini qapalı məkanda sosial şəbəkələrdə, rəqəmsal platformalarda keçirirlər. Alimlər rəqəmsal asılılığın beyin inkişafına zərərlərini sübut ediblər. Harvard tibb məktəbinin araşdırmalarına inansaq, rəqəmsal cihazların həddindən artıq istifadəsi yuxu pozğunluqlarına, düşünmə qabiliyyətinin azalmasına və diqqət dağınıqlığına səbəb olur. Rəqəmsal aludəçilik spirtli içki, tütün məhsulları, maddə asılılığı kimi beyin mərkəzinə cox mənfi təsir göstərən zərərli vərdişlər siyahısına daxildir.

Məqsədimiz uşaqları texnologiyadan tamamilə məhrum etmək deyil, bu imkanları onların ləyaqətinə, təhlükəsizliyinə və inkişafına uyğun formaya salmaqdı.

Oyun oynayanlar daha sürətli və dəqiq reaksiya verirlər. Qərar vermə bacarıqları inkişaf edir. Tapmaca və strategiya oyunları beyin hüceyrələrini aktiv saxlayır. Bəzi oyunlar beynin sağ və sol yarımkürələrinin birlikdə çalışmalarına kömək edir. Ancaq oyun oynayarkən tarazlığı qorumaq şərtdir.

Kompüter oyunlarına həddindən artıq həvəsin olması oyun oynamaq vərdişinin yaranmasına səbəb olur. Oyun asılılığı 2019-cu ildən etibarən Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən xəstəlik kimi tanınıb. Təşkilatın hesabatlarına görə yeniyetmələrin 35 faizi 1 gündə 5 saatdan çox vaxtını telefonda oyun oynamaqla keçirir. Ölkəmizlə bağlı göstəricilər də ürəkaçan deyil. 10-17 yaşlı uşaqların 89 faizi smartfon istifadəçisidir. Onların 76 faizi sosial media platformalarından istifadə edir. Elə buna görə də yeni qaydaya əsasən Azərbaycanda 16 yaşına çatmayanlar sosial şəbəkələrdə fərdi hesab yarada bilməyəcəklər. 16-18 yaş arası istifadəçilər üçün isə nəzarətli istifadə modeli tətbiq olunacaq ki, burada valideyn nəzarətinin gücləndirilməsi də vacibdir.

Hazırda kompüter oyunları xüsusilə də gənclərin asudə vaxtlarını keçirdikləri bir məşğuliyyətə çevrilib. Bu növ asılılığın varlığından danışa bilmək üçün şəxsin gündəlik həyatında ictimai münasibətlərə, peşə məsuliyyətlərinə laqeyd yanaşacaq səviyyədə oyunlar oynaması lazımdır. Virtual dünyada rol oynama oyunları, mükafat mexanizmlərinin olması və sosial oyun şəbəkələrində iştirak kimi müxtəlif amillər elektron oyunlara asılılıq riskini artıra bilər. Bu vəziyyət xüsusilə gənclərə təsir edir. Elektron oyun asılılığı bu cür oyunların, o cümlədən video oyunların həddindən artıq və nəzarətsiz istifadəsi ilə yaranan davranış asılılığının bir növüdür. Bu asılılıq onlayn oyunlar və video oyunları oynamaqla əlaqəli problemli davranışları əhatə edir və texnologiya asılılıqları arasında geniş yayılmışdır. Oyun asılılığı, həmçinin internet asılılığının alt kateqoriyası hesab olunur. Kompüter oyunları narkotik və alkoqolun yaratdığı təsirlərə bənzədiyi üçün beyində həzz hissi yaradır. Bu, yenidən oyun oynamaq istəyən şəxsə stimul verir. Kompüter oyunlarından həddindən artıq istifadə insanda




müxtəlif psixoloji və fiziki cəhətdən mənfi təsirlərə səbəb olduğu üçün oyun asılılığı davranış pozuntusu hesab edilir.

Kompüter oyunları şəxsə real həyatda mümkün olmayan təcrübələri yaşadaraq məhdudiyyətsiz xəyal gücündən istifadə etmək kimi imkanlar təqdim edir. Virtual mühitdə dost olmaq, tədbirlər təşkil etmək kimi sosial imkanlar sayəsində insanları özünə cəlb edir. Bundan əlavə oyun oynama vaxtı ilə asılılıq arasında birbaşa əlaqə olduğu müşahidə edilir. Kompüter oyunları insanın gündəlik həyatına əhəmiyyətli dərəcədə təsir etdikdə, bu asılılığa səbəb ola bilir. Asılılığın səciyyəvi simptomları arasında oyundan əl çəkə bilməmək, daim oyun haqqında düşünmək, gündəlik tapşırıqları pozmaq, həyatın digər aspektləri ilə müqayisədə oyuna üstünlük vermək, real həyatla oyun oynamağın bir-birinə qarışması daxildir. Asılı insanlar çox vaxt dostlarına, ailələrinə, məktəblərinə və ya işlərinə laqeyd yanaşırlar. Digər tərəfdən: məktəbdə və ya işdə uğursuzluq, fiziki ehtiyaclara (yuxu, qida, məşq, şəxsi gigiyena) laqeyd yanaşması, çəki artımı, piylənmə və ya qidalanma pozğunluğu, depressiv əhval-ruhiyyə və kompüter oyunları oynamaq üçün bəhanələr gətirmək. Bu asılılığın digər əlamətlərinə əsəbilik və ya kompüter söndürüldükdən sonra tərləmə kimi əlamətlər daxildir.

Kompüter oyunu asılılığı psixoloji xəstəlik kimidir. İnsan oyunda zaman kontrolunu itirir. Real həyatdan qopub virtual aləmə bağlanır. Bəzi virtual oyunlar sosial şəbəkələr üzərindən gizli qruplarda idarə olunan təhlükəli bir manipulyasiya mexanizmidir. Oyunun “kuratorları” iştirakçıların zəif nöqtələrini tapır, onlara qorxu və təhdidlərlə təzyiq göstərərək özlərindən asılı vəziyyətə salırlar. Oyunun sonuncu tapşırığı birbaşa intihar əmridir. Kuratorlar iştirakçıları ailələrinə zərər yetirəcəkləri ilə hədələyərək bu addımı atmağa məcbur edirlər.

Bu, sağlamlığın itirilməsinə, ünsiyyət pozğunluğuna və əmək qabiliyyətinin pozulmasına gətirib çıxaran səbəblərdəndir.

Oyun asılılığının zərərləri akademik göstəricinin aşağı olması, qeyri-sağlam qidalanma səbəbindən kilo alma, şəxsi qulluğa etinasızlıq, oturaq həyat tərzi kimi problemlər daxildir. Kompüter oyunlarına aludə olanlar açıq hava fəaliyyətlərinə və təbiətə maraqlarını itirirlər. Hər zaman evdə qalmaq fiziki hərəkətsizliyə və əzələlərin zəifləməsinə yol açır. Xüsusilə gənclərdə bu təsirlər daha ciddi nəticələrə səbəb ola bilər. Uşaqlıqda başlayan kökəlmə prosesi çox vaxt ömür boyu davam edə bilər. Bundan əlavə, artıq çəki, şəkərli diabet kimi xroniki xəstəliklər və qeyri-sağlam həyat tərzi bu asılılığın yan təsirləri sırasındadır.

Dopamin xoşbəxtlik, həzz və motivasiya verən təbii kimyəvi maddədir. O beyindəki sinir hüceyrələri arasında vacib siqnallar daşıyır. Bu prosesi başa düşmək üçün onu mükafat zərfi kimi düşünün. İşdə uğur qazananda və ya sevdiyiniz yeməyi yeyəndə beyniniz bu zərfi açır və sizə sevinc bəxş edir. Oyun zamanı beyinə böyük dozada xoşbəxtlik hormonu sayılan dopamin atılır ki, bu digər qadağan olunmuş maddələrin qəbulu və kazino oyunları zamanı yaranan “xoş hiss”ə bənzəyir. Realda nə baş verir? Kompüter oyunlarına aludəçilik yuxu ilə reallıq arasındakı fərqi qarışdırmaq, antisosial davranışlar, azad düşüncənin itirilməsi, zorakılığa meyil kimi bir çox psixoloji zərərlərə də səbəb ola bilər.

Tədqiqatlar göstərir ki, kompüter oyunları və ya internet asılılığı, təşviş, digər asılılıq növləri depressiya riskini artırır. Klaviatura, siçandan fasiləsiz istifadə musiqi aləti ifa edənlərdə olduğu kimi, biləkdə ağrıların yaranmasına səbəb ola bilər. Uzun müddət ekran istifadəsi göz yorğunluğu, göz zəfləməsi, yanma hissi, bulanıq görmə, baş ağrıları və uzunmüddətli görmə pozuntusuna gətirib çıxara bilər. “Kompüter boynu sindromu” da tibb elminə yeni daxil olub. Sindrom boynun uzun müddət irəli əyilmiş vəziyyətdə ekrana doğru qalması ilə yaranır. Bu vəziyyətdə oturan insanın 5 kq çəkidə olan başı 27 kq qədər ağırlaşır. Onurğa sütunu bu ağır yükü saxlamaq üçün əzələlərin gərginliyini artırır. Nəticədə daimi baş ağrıları, yüksək təzyiq, baş gicəllənməsi beyin-qan dövranın pozulması halları yaranır.

Nomofobiya (“no-mobile-phone phobia) - bu smartfonsuz qalma fobiyasıdır.

Ətrafınızda mobil telefonu əlində olmayanda şiddətli təşviş və panika yaşayan, şəbəkə itəndə, enerji bitəndə və ya internet kəsiləndə stress keçirən şəxs varsa, nomofobiya simptomlarından şübhələnə bilərsiniz. Telefonu heç vaxt söndürmürsə, hətta yatarkən belə yaxınlıqda saxlayırsa, cihazı hər an yoxlamaq ehtiyacı duyursa, sosial media və şəbəkələri izləmək üçün daim təzyiq hiss edirsə, bu hal şübhələrinizi doğrulda bilər.

Fərdlər internetdə keçirdiyi vaxtı idarə etməyi öyrənməli və kompüterin həyatlarındakı əhəmiyyətini dərk etməlidirər. Telefon və planşetlərdə saatlarca serial izləmək və oyun oynamaq ailədaxili münasibətlərdə və övladlarımıza yanaşmada öz mənfi reaksiyasını göstərir.

Sosial şəbəkələr analitik düşünmə qabiliyyətini, məntiqi təfəkkür tərzini məhdudlaşdırır. Bu isə fəaliyyəti sona qədər davam etdirmək bacarığının itirilməsinə səbəb ola bilir. Uşaqlarımız “klip sindromu” deyilən sindromla qarşı qarşıyadır. Beyin televiziyada və telefonda sürətlə keçən rəngli görüntülərə öyrəşir. Bundan sonra real həyat sıxıcı gəlir. Buna görə də psixoloqlar uşaqlar üçün 45 dəqiqəlik limit müəyyənləşdiriblər.

Oyun asılılığının müalicəsində psixoterapiya və dərman müalicəsi, qrup terapiyası, reallıq terapiyası, meditasiyalar, koqnitiv davranış terapiyası və virtual reallıq terapiyası kimi bir çox üsullardan istifadə etmək olar.

Hərbi xidmətin gətirdiyi ağır fiziki və psixoloji gərginlikdən qaçmaq üçün hərbi qulluqçu kompüter oyunlarını bir sığınacaq kimi görə bilər. Hərbi mövzulu oyunlar real hərbi mühitə oxşarlıq təşkil etdiyi üçün onun marağını daha tez cəlb edə bilər. Evdən və doğmalardan uzaqda olan hərbçilər onlayn oyunlar vasitəsilə virtual olsa da, ünsiyyət tapmağa çalışa bilərlər. Bu zaman onlayn oyun platformaları vasitəsilə hərbi hissə, dislokasiya yeri və ya daxili xidmət barədə məlumatların bilmədən kənar şəxslərə ötürülməsi riski yaranır. Buna görə də hərbi hissələrdə şəxsi heyətin asudə vaxtının düzgün planlaşdırılmasına, smartfon və internet istifadəsinə ciddi nəzarət olunur. Vətən müdafiəçilərinin enerjisini və diqqətini idman yarışlarına, intellektual oyunlara və hərbi-vətənpərvərlik tədbirlərinə yönəltmək də bu asılılığın qarşısını alır. Hərbi psixoloqlar və kibertəhlükəsizlik mütəxəssisləri tərəfindən mütəmadi olaraq şəxsi heyət ilə maarifləndirici söhbətlər aparılır, qabaqlayıcı tədbirlər görülür.

Müasir orduların gücü və effektivliyi birbaşa rəqəmsallaşma səviyyəsindən asılı olsa da, texnologiyadan həddindən artıq asılılıq (kompüter asılılığı) milli təhlükəsizlik üçün ciddi risklər yaradır. Rəqəmsal texnologiyalar döyüş meydanında misilsiz üstünlüklər qazandırır, eyni zamanda, orduları gözlənilməz zəifliklərlə üz-üzə qoyur.

Rəqəmsal texnologiyaların tətbiqi hərbi doktrinaları kökündən dəyişərək ordunu daha çevik və öldürücü qüvvəyə çevirib. Kompüter bilikləri yüksək olan gənclərin orduda yaradılmış intellektual bölmələrdə hərbi xidmət keçməsi onların biliklərini tətbiq etməsinə imkan yaradır.

Müasir orduların proqram təminatı və rəqəmsal sistemlərdən mütləq asılılığı, rəqib üçün yeni hədəflər yaradır. Texnoloji asılılıq hərbi kontekstdə bir sıra təhlükələri ortaya çıxarır.

Rəqəmsallaşma müasir ordunun beynidir, lakin kompüter asılılığı bu beynin hər an iflic ola biləcək zəif nöqtəsidir. Qələbə yalnız rəqəmsal üstünlüklə deyil, həm də texnologiyanın çökdüyü anda döyüşü davam etdirə biləcək sağlam iradəli və hazırlıqlı insan amili ilə qazanılır.

**Sevda AŞIROVA**
**“Azərbaycan Ordusu”**

## Azərbaycan Xalq Cümhuriyyəti ərəb mətbuatının diqqətində

AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun Şərq-Qərb şöbəsinin əməkdaşı Elvin Sultanovun “Azərbaycan Xalq Cümhuriyyəti öz dövrünün Misir mətbuatında” adlı məqaləsi Misirin “əl-Əxbar əl-Məsai” və “əl-Aləm əl-Arabi”, həmçinin Əlcəzairin “Tariq əl-Harir” nəşrlərinin internet səhifələrində yayımlanıb.

İnstitutdan AZƏRTAC-a bildirilib ki, məqalədə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, siyasi vəziyyəti, əhalisi və ərazisi haqqında məlumat verilib.

Yazıda Misirin “əl-Əhram” qəzetinin 1919-cu 27 iyul il tarixli nömrəsində dərc edilmiş “Azərbaycan hökuməti və Parisdəki nümayəndə heyəti istiqlal tələb edir” sərlövhəli məqaləsindən bir hissə təqdim olunub, eyni zamanda, həmin yazıda yer alan bəzi məqamlara aydınlıq gətirilib.

Məqalədə vurğulanır ki, 1920-ci il yanvarın 11-də Paris Sülh Konfransının Ali Şurası Azərbaycan Xalq Cümhuriyyətini de-fakto tanıyıb və həmin dövrdə tanınan Azərbaycan ərazisinə Zəngəzur bölgəsi də daxil olub.

Bununla yanaşı, yazıda müasir Azərbaycan Respublikasının Azərbaycan Xalq Cümhuriyyətinin siyasi və hüquqi varisi olduğu diqqətə çatdırılıb.

## Zakir Abidov: Qarabağın bərpası bütün Türk dünyası üçün mühüm tarixi quruculuq prosesidir

*Qarabağın bərpası bu gün təkcə Azərbaycan üçün deyil, bütün Türk dünyası üçün böyük əhəmiyyət daşıyan tarixi quruculuq prosesidir. Özbəkistan ilk gündən bu nəcib təşəbbüsü dəstəkləyib və azad olunmuş ərazilərin bərpası və inkişafına praktiki töhfə verir.*

Bu sözləri AZƏRTAC-a müsahibəsində Qlobal Cənub QHT Platformasının üzvü, Özbəkistanın Qardaşlaşmış Şəhərlər Alyansının sədri Zakir Abidov deyib.

“Özbəkistanın iştirakı ilə Qarabağda müasir sosial infrastrukturun yaradılması, məktəblərin, məktəbəqədər təhsil müəssisələrinin və digər sosial obyektlərin tikintisi istiqamətində mühüm layihələr həyata keçirilib. Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, Qarabağın bərpası prosesində ilk yardım əlini uzadan ölkə məhz Özbəkistan olub. Füzuli şəhərində inşa edilərək istifadəyə verilmiş müasir ümumtəhsil məktəbi xalqlarımız arasında qardaşlıq və dostluğun parlaq rəmzinə çevrilib”, - deyə Z.Abidov bildirib.

Onun sözlərinə görə, Özbəkistan investisiyalarının iştirakı ilə Qarabağda yaradılan ilk yüngül sənaye müəssisəsi burada yeni iş yerlərinin açılmasına, regionun iqtisadiyyatının dirçəldilməsinə və yerli istehsalın inkişafına töhfə verəcək.

*Disput*

# “Azərbaycan xalqının qüdrətidir bu!”

*Həzin-həzin əsən meh ağacların xırda budaqlarını və yarpaqlarını titrətməkdəydi. Xatırlayıram, onda da belə bir rüzgar vardı, onda da əsgərlərin əhatəsində gözəl bir ovqat yaşayırdıq. İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusunun qazandığı tarixi Zəfərin birinci ildönümünə həsr olunmuş tədbir ərəfəsində əsgərlərdən biri demişdi: “Görəsən bizdən sonra hərbi xidmətə çağırılacaq əsgərlər də bizim kimi fərəhlənəcəklərmi ki, biz qaliblərin davamçılarıyıq”. Əsgərin fikrini digər əsgər tamamlamışdı: “Tarixi Zəfər tarixən yaşadılacaq, ona görə də bu qürur əbədiyyətin qürurudur”. Tədbir xoş ovqatla başlamışdı...*



Bir vaxtlar Azərbaycan əsgərinin qazandığı tarixi Zəfərlə qürurlananlar tərxis olunub, o vaxtlar qürurlanan çağırışçılar indi hərbi xidmətdədir. Mahiyyəti Vətən müharibəsi olan İkinci Qarabağ müharibəsinin iştirakçıları da zamanında Hərbi And içmişdilər, həmin Anda bu günün əsgərləri də sadiqdirlər. Həmin Andı ruhən İkinci Qarabağ müharibəsinin iştirakçılarına, şəhidlərin ruhuna xitabən “Sizin qazandığınız tarixi Zəfəri biz yaşadacağıq, bizdən sonra xidmət edən əsgərlər yaşadacaq!” kəlmələri tamamlayıb, düşünürəm. Sözlərimə zəmanətim bu günün qalib ordusunun şəxsi heyətinin yüksək döyüş və mənəvi-psixoloji hazırlığıdır...

Azərbaycan Ordusunun İkinci Qarabağ müharibəsində qazandığı tarixi (və bəşəri!) qələbədən sonra dövlət başçımızın müvafiq sərəncamı ilə işğaldan azad edilmiş ərazilərdə böyük quruculuq işləri başladı. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin bu ərazilərə müntəzəm səfərləri quruculuq işlərinin də Zəfərlə başa çatdırılacağının inamıdır.

Cari ilin iyul ayının 11-də dövlətimizin başçısı Xocavənd rayonunda səfərdə olanda sakinlərlə görüşündə qürurla dedi ki, “Son 80 il ərzində Azərbaycan dövləti və xalqı qədər heç bir dövlət və xalq buna oxşar Qələbə qazanmamışdır, özü də cəmi 44 gün ərzində”. Bu fikir hər bir azərbaycanlının azərbaycançılıq qürurunu coşdurdu, bu adi hisslər Vətənə sevgi kimi yaşadılır...

“N” hərbi hissəsində bu qürurun işığında həmin fikirlər haqqında söhbətləşirik. Disput formatında başlayan söhbətləşmə Azərbaycan dövlətçiliyinə, Müzəffər Ali Baş Komandana, rəşadətli Azərbaycan Ordusuna, qalib Azərbaycan əsgərinə ehtiramdır. Bu sonsuz ehtiramın əhatəsində leytenant Nüsrət Kərimov disputa giriş kimi deyir ki, 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycana qarşı genişmiqyaslı təxribat törətməyə cəhd göstərmiş, ordumuzun hissələri bu təxribatın qarşısını qətiyyətlə almış, Ali Baş Komandanın əmri ilə əks-hücuma keçmişdi. Bu əmr mahiyyət etibarilə İkinci Qarabağ müharibəsinin başlanğıc əmri olmuşdu...

Zabit disputun məzmununun daha əhatəli dərki məqsədi ilə əsgərləri disputda fəal iştiraka cəlb edir. Soruşur ki, “İlk qələbələr nə vaxt qazanılmışdı?”. Əsgər Əli Məmmədovun düşüncələrinin və səsinin sevincinin bir dünyalıq qüruru aydınlığı ilə duyulur, duyulan qürur digər əsgərlərin baxışlarında təzahür edir:

- Qəbul imtahanlarına hazırlaşanda oxuduqlarımın əksəriyyəti yadımdadır.

Əsgər Samir Aslanov əsgər yoldaşının sözünün qüvvəti kimi deyir ki, Vətənlə bağlı olan hadisələr, faktlar unudulmur. Əlinin baxışlarında bir məmnunluq dolaşır:

- Azərbaycan Ordusu müharibənin ilk günündə Füzulinin Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı, Cəbrayılın Böyük Mərcanlı, Nüzgar kəndlərini işğaldan azad etdi. Bu qələbə döyüşən ordumuzun qələbə ruhunu yüksəltmişdi. Döyüşçülərimiz xalqın bu sevincini Böyük Qələbə ilə tamamlamaq üçün döyüşürdü...

Əsgərin xatırlatmaları digər əsgərlərin də düşüncələrini disputa yönəltmişdi. Elə bil hər biri xatırlamaları ilə ruhən, ruhun düha doğmalığı ilə İkinci Qarabağ müharibəsinin iştirakçısı olmaq istəyirdi...

- Ordu hissələrimiz döyüşə-döyüşə qələbələr qazanırdı, qələbələr qazana-qazana döyüşürdü. Müharibə xalqın müharibəsi, savaş tarixi ədalətin bərpası idi. Döyüşlərdən uzaqda qalanlar ruhən döyüşənlərin sırasındaydı. İlk şəhər işğaldan oktyabrın 4-də azad edildi. Həmin gün Cəbrayıl şəhəri və rayonun bir sıra kəndləri işğaldan azad edildi (əsgər Ruhul Səmədli).

- Müharibə vaxtı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciətində dediklərini yuxarı siniflərdə oxuyanda öyrənmişdim. Həm şagird kimi, həm də yeniyetmə kimi: "Dünyada heç bir qüvvə bizi haqq yolundan döndərə bilməz. Dünyada heç bir ölkə bizim iradəmizə təsir edə bilməz. Biz haqq yolundayıq. Biz qalib gəlirik. Biz zəfər çalırıq və biz öz torpaqlarımızı geri alacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik". Atam deyirdi ki, o vaxtlar bu fikirlərdə hər bir azərbaycanlı son döyüşün qələbə sonluğunu görürdü (əsgər Elçin Abbasov).

Leytenant Nüsrət Kərimov xatırladır ki, dövlət başçımızın iyulun 11-də Xocavənddə bu səfəri də quruculuq işlərinin sürətləndirilməsində, xalqın qazanılmış tarixi Zəfərə ehtiramının işğaldan azad edilmiş ərazilərdə yaradılan şəraitə ehtiramı ilə tamamlanmasında son dərəcədə əhəmiyyətli olacaq. Döyüşdə - 2020-ci ilin payızında - İkinci Qarabağ müharibəsində qazanılan Zəfər işğaldan sonra quruculuq işlərində də davam etdiriləcək.

Azərbaycan Ordusunun qazandığı qələbə ona görə tarixi qələbədir ki, illərlə uzanan işğala cəmi 44 gündə son qoyuldu.

Əsgər Loğman Abdullayev yadında qalan müharibələrin tarixini xatırlayır. Həm də xatırladır ki, işğalçılıq həmişə torpaqsevərliyə məğlub olub. Vyetnamda da belə olmuşdu, Əfqanıstanda da belə olmuşdu, digər ərazilərdə də belə olmuşdu. İkinci Qarabağ müharibəsi xalqın müharibəsi idi. Xocavənddə Prezidentimizin qürurla dediyi fikirlər bizim də qürurumuzdur. Biz qürurlanırıq ki, belə bir ordunun əsgərləriyik, Ali Baş Komandanın döyüş əmrini cəmi 44 günə başa çatdıran, xalqımıza Böyük Qələbənin sevincini yaşadan qalib ordunun döyüşçülərinin varisləriyik.

Əsgər Mail Abdullayev əsgər yoldaşının sözünə söykək kimi deyir ki, döyüşçülərimiz digər döyüşlərdə də igidliklə vuruşdular. Ancaq Şuşanın azad edilməsi uğrunda baş tutan döyüşlər Azərbaycanı sevənlərə qədərsiz sevinc yaşatdı, ölkəmizi sevməyənlərə - qədərsiz qəhr. Dövlət başçımızın disput üçün mövzu seçilmiş bu fikirlərini həm də Şuşa döyüşlərinin iştirakçılarına ehtiram bilirik.

Əsgər Loğman Abdullayev də söhbətə qoşulur:

- Tarix müəllimimiz bizə İkinci Qarabağ müharibəsində yazılmış reportajlardan da danışırdı. Bir rusiyalı hərbi ekspertin yazdığı məqaləni hamımız maraqla dinləmişdik, müəllimimizin təklifi ilə o məqalədən bəzi fikirləri yazmışdıq. Onları unutmamışam: "Azərbaycan Şuşanı azad etdi, piyada döyüşləri ilə, sursatları üstündə daşıya-daşıya, duman altında, pis hava şəraitində dağları yararaq qaytardı. Şəhəri PUA-larsız, tanksız, artilleriyasız aldılar. Belə döyüş, dövlət, Vətən sevgisi görən olubmu? Demək çətindir! Dağ yuxarı, şəhidi çiynində, döyüşə-döyüşə qan-tər içində qalxırdı Azərbaycan Ordusu. Nə yaralını, nə şəhidi əldən buraxırdılar. Nəfəs almadan Şuşaya çıxdılar...".

Əsgər Elçin Abbasovun dedikləri həm müharibənin tarixidir, həm bu tarixə ehtiramdır, həm də disput üçün seçilmiş mövzunun mahiyyətinə əsgər sədaqətidir. Bu sədaqət dövlət başçımızın dediyi fikirlərin, bu sıradan “Son 80 il ərzində Azərbaycan dövləti və xalqı qədər heç bir dövlət və xalq buna oxşar Qələbə qazanmamışdır, özü də cəmi 44 gün ərzində” fikrinin işığında elə gözəl ifadə olunur ki!...

- Dövlətimizin başçısının bu fikirləri həm də şəhidlərimizin ruhuna ehtiramdır. Müəllimlərimizdən eşitmişdim: Hər şəhid qəhrəmandır, hər qəhrəmanlıq - heç zaman unudulmayacaq bir tarix.

Əsgər yoldaşının sözünü əsgər Samir Aslanov tamamlayır:

- Dövlət başçımızın qürurla dediyi bu fikirlərdə şəhidlərimizin ruhuna böyük ehtiram var. Biz bu ehtiramın da əsgəriyik və onu hərbi xidmətdən sonra da yaşadacağıq.

- İkinci Qarabağ müharibəsi xalqımızın müharibəsi idi. 27 sentyabr - 8 noyabr 2020-ci il. Bu tarixlər 44 günü əhatə edir. Mahiyyəti bəşəri ölçülərlə ölçülən bu tarix də təsdiqlədi ki, işğalçılığın sonu olmur, Vətən sevgisi, vətənpərvərlik həmişə qalib gəlir. Bu fəlsəfə Azərbaycanda daha qətiyyətlə, daha hərbi əsaslarla, daha böyük coğrafiyanı əhatələməklə təsdiqləndi, - deyirəm. Araya çəkingən bir səssizlik çökür. Fikrimi əsgər Ruhul Səmədli tamamlayır:

- Bayaq Loğman bir hərbi ekspertin dediklərini xatırlatdı. O fikirlər illər sonra olsa da, məni duyğulandırdı. Döyüşçülərimizin döyüş əzminə görə duyğulandım, Şuşanın işğaldan azad edilməsinə görə duyğulandım, dünyanın qəlbitəmiz insanlarının düşüncələrinə görə duyğulandım. Loğmanın dediklərində həm də dövlət başçımızın fikirlərinin tarixi həqiqətlərini gördüm...

Əsgərin dedikləri hamımıza xoş gəlir. Müharibənin fəlsəfəsinin, tarixi Zəfərin fəlsəfəsinin, dövlət başçımızın “Son 80 il ərzində Azərbaycan dövləti və xalqı qədər heç bir dövlət və xalq buna oxşar Qələbə qazanmamışdır, özü də cəmi 44 gün ərzində” kimi ifadə etdiyi qürurun fəlsəfəsinin bu qədər gözəl dərkindən qürurlanırıq...

Bayaqdan bəri həzinliklə əsən meh əsib, əsib, kəsib. Yayın yay günü havanın bu qədər insafla sərinləşməsində əsgər düşüncələrinin işığın duymaq çətin deyil...

**Baş leytenant
Elçin İMANOV
“Azərbaycan Ordusu”**

# Hərbi Tibb Fakültəsinə qəbul davam edir




Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsində hərbi həkim və hərbi feldşer ixtisasları üzrə tam dövlət hesabına təhsil almaq və peşəkar tibbi biliklərə yiyələnmək fürsəti səni gözləyir.

Hərbi həkim ixtisasına qəbul Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən IV ixtisas qrupu üzrə qəbul imtahanının nəticələri, hərbi feldşer ixtisasına qəbul isə XI sinif buraxılış imtahanının nəticələri əsasında həyata keçirilir.

Gələcəyini hərbi tibb sahəsində qurmaq istəyən namizədlər mmu.edu.az saytının "Təhsil müəssisələrinə qəbul" bölməsindən qeydiyyatdan keçərək qəbul prosesində iştirak edə bilərlər.

Qeydiyyat və ətraflı məlumat üçün: mmu.edu.az
Əlaqə:
Çağrı mərkəzi: *0811
E-poçt: admission@mmu.edu.az

## Hərbi hüquq

**II bölmə**

# Hərbi qulluqçuların hüquqları və vəzifələri

**Maddə 6. Siyasi hüquqlar və azadlıqlar**

1. Azərbaycan Respublikasının vətəndaşı olan hərbi qulluqçular Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq Azərbaycan Respublikasının seçkili dövlət orqanlarına seçmək və seçilmək, ümumxalq müzakirələrində və səsvermələrində (referendumlarda) iştirak etmək hüququna malikdirlər.

Azərbaycan Respublikasının müvafiq seçkili dövlət orqanlarına seçkilərdə səsə qoyulmaq arzusunda olan hərbi qulluqçular bu barədə özlərinin birbaşa komandirinə (rəisinə) məlumat verirlər.

2. Özlərinin xidmət fəaliyyətində hərbi qulluqçular Azərbaycan Respublikası Konstitusiyasının və digər qanunlarının tələblərini rəhbər tuturlar və siyasi məqsədlər güdən siyasi partiyaların və kütləvi ictimai hərəkatların üzvü ola bilməzlər.

3. Dövlət sirrini açmamaq şərtilə, hərbi qulluqçuların söz və mətbuat azadlığına, əqidə azadlığına, öz əqidəsini sərbəst ifadə etməsinə təminat verilir.

## Maraq dünyamız

# Bir silahın tarixi

(Əvvəli 1-ci səhifədə)



Gürz və balta isə yaxın döyüşlərdə böyük gücə malik idi. Ancaq bu silahların arasında qılınc həm döyüşçüyə çevikliyi təmin etməsi, həm də döyüş imkanlarına görə daha çox seçilirdi. Təcrübəli döyüşçü qılıncla həm müdafiə olunur, həm də qısa vaxt ərzində ardıcıl hücumlar edə bilirdi.

Azərbaycan ərazisində aparılan arxeoloji qazıntılar zamanı müxtəlif dövrlərə aid qılınclar, nizə ucluqları, ox ucluqları və digər silah nümunələri aşkar edilib. Bu tapıntılar göstərir ki, qədim ustalar metal emalı sahəsində yüksək bacarıqlara malik olublar. Onlar dəmiri emal edərək həm möhkəm, həm də yüngül silahlar hazırlamağı bacarırdılar. Silahın döyüşdə etibarlı olması üçün onun tarazlığına, çəkisinə və möhkəmliyinə xüsusi diqqət yetirilirdi.

Azərbaycan hərb sənətində qılıncdan istifadə xüsusi hazırlıq tələb edirdi. Döyüşçülər illərlə məşq edir, qılıncı düzgün tutmağı, sürətli zərbə endirməyi və eyni zamanda, özlərini qorumağı öyrənirdilər. Təkcə fiziki güc kifayət etmirdi. Çəldlik, dəqiqlik və düzgün qərar vermək bacarığı da böyük rol oynayırdı. Buna görə də qılıncdan ustalıqla və məharətlə istifadə etməyi bacaranlar döyüş meydanında rəqib üçün ciddi təhlükə hesab olunurdu.

Orta əsrlərdə Azərbaycan ərazisində fəaliyyət göstərən dövlətlərin ordularında süvari qoşunları əsas qüvvələrdən biri idi. At üstündə döyüşən əsgərlər üçün qılınc ən əlverişli silahlardan sayılırdı. Süvari yüksək sürətlə hərəkət edərkən qılıncla həm hücum edir, həm də özünü müdafiə edə bilirdi. Bu səbəbdən qılıncın forması və uzunluğu döyüş üsuluna uyğun hazırlanırdı.

Azərbaycan hərb tarixində tanınmış sərkərdələr də qılıncdan məharətlə istifadə ediblər. Babək döyüşlərdə cəsarəti və çevik hərəkətləri ilə seçilib. Şah İsmayıl Xətai dövründə isə ordunun silahlanmasına və döyüş hazırlığına xüsusi diqqət yetirilirdi. Həmin dövrdə hazırlanan qılınclar həm döyüş silahı, həm də sənət nümunəsi kimi qiymətləndirilirdi. Dəstəkləri bəzək elementləri ilə işlənir, bəzən üzərinə müxtəlif yazılar və naxışlar həkk olunurdu.

Qılıncın hazırlanması uzun və məsuliyyətli proses idi. Usta əvvəlcə keyfiyyətli polad seçirdi. Sonra metal yüksək temperaturda qızdırılır, döyülür və lazımi forma verilirdi. Daha sonra itiləmə və cilalama işləri aparılırdı. Hazır silah bir neçə dəfə sınaqdan keçirilirdi. Bu iş böyük təcrübə və səbir tələb edirdi. Məhz buna görə bacarıqlı silah ustaları cəmiyyət arasında böyük hörmət qazanırdılar.

Azərbaycanın hərb sənəti yalnız silah hazırlamaqdan ibarət olmayıb. Burada döyüş taktikası da mühüm yer tuturdu. Sərkərdələr ərazinin xüsusiyyətlərini düzgün qiymətləndirir, qoşunların yerləşməsini əvvəlcədən planlaşdırır və düşmənin zəif tərəflərindən istifadə etməyə çalışırdılar. Dağlıq ərazilərdə pusqu qurmaq, sürətli süvari hücumları təşkil etmək və gözlənilməz manevrlər etmək Azərbaycan hərb sənətinin fərqləndirici xüsusiyyətlərindən idi.

Zaman keçdikcə odlu silahların meydana çıxması qılıncın döyüş meydanındakı rolunu azaltdı. Tüfənglər, toplar və daha sonra müasir silahlar orduların əsas döyüş vasitəsinə çevrildi. Bununla belə, qılınc tarixdəki əhəmiyyətini heç vaxt itirmədi. Bu gün o, Azərbaycan hərb tarixinin, qəhrəmanlıq ənənələrinin və döyüş ruhunun rəmzlərindən biri kimi qiymətləndirilir.

Hazırda muzeylərdə qorunan qədim qılınclar, nizələr və digər silahlar xalqımızın zəngin hərb tarixini öyrənmək baxımından mühüm mənbədir. Bu eksponatlar göstərir ki, Azərbaycan döyüşçüləri yalnız cəsarətləri ilə deyil, həm də yüksək hərbi hazırlıqları və inkişaf etmiş silah mədəniyyəti ilə seçiliblər.

Tarixi silahlar keçmişimizin canlı şahidləridir. Onlar bizə xatırladır ki, Vətənin müdafiəsi hər zaman xalqımız üçün müqəddəs vəzifə olub. Qədim silah ustalarının zəhməti, döyüşçülərin igidliyi və sərkərdələrin uzaqgörənliyi Azərbaycan hərb sənətinin formalaşmasında mühüm rol oynayıb. Bu irsin öyrənilməsi təkcə tariximizi daha yaxşı tanımağa deyil, həm də milli hərbi ənənələrimizin gələcək nəsillərə çatdırılmasına xidmət edir.

**Hazırladı:**
**Hüsniyyə NƏSİROVA**
**"Azərbaycan Ordusu"**

## Hərbi terminlər

# Demilitarizasiya




Demilitarizasiya beynəlxalq təhlükəsizlik və hərbi terminologiyada geniş istifadə olunan anlayışlardan biridir. Termin dövlətin, regionun və ya müəyyən coğrafi ərazinin hərbi potensialının qismən aradan qaldırılması, silahlı qüvvələrin, silah-sursatın, döyüş texnikasının və yaxud onların fəaliyyətinin hüquqi və ya siyasi mexanizmlərlə məhdudlaşdırılması prosesini ifadə edir.

Demilitarizasiya beynəlxalq münasibətlərdə sülhün möhkəmləndirilməsi, münaqişələrin yenidən alovlanmasının qarşısının alınması və regional təhlükəsizliyin təmin edilməsi məqsədilə tətbiq olunan mühüm vasitələrdən biri hesab edilir. Bu anlayış həm beynəlxalq hüquqda, həm də hərbi strategiyada xüsusi yer tutur. Hərbi elmdə demilitarizasiya yalnız qoşunların müəyyən ərazidən çıxarılması kimi qiymətləndirilmir. Proses daha geniş məna daşıyır və hərbi bazaların ləğv edilməsi, ağır silahların, raket sistemlərinin, artilleriya qurğularının, zirehli texnikanın və digər döyüş vasitələrinin məhdudlaşdırılması, yeni hərbi obyektlərin tikintisinin qadağan olunması, istehkamların sökülməsi və həmin ərazilərin mülki idarəetməyə verilməsi kimi tədbirləri də əhatə edir. Ayrı-ayrı hallarda müqavilə və ya anlaşma ilə demilitarizasiya dövlətin silahlı qüvvələrinin sayının azaldılması, hərbi büdcənin məhdudlaşdırılması və müəyyən silah növlərinin istifadəsinə qadağa qoyulması ilə də müşayiət oluna bilər. Demilitarizasiya beynəlxalq müqavilələrin, sülh sazişlərinin, atəşkəs razılaşmalarının və beynəlxalq təşkilatların qərarlarının icrası çərçivəsində həyata keçirilir. Bu prosesin əsas məqsədi tərəflər arasında qarşılıqlı etimadın yaradılması, hərbi eskalasiyanın qarşısının alınması və təhlükəsizlik mühitinin sabitləşdirilməsidir. Beynəlxalq praktikada demilitarizasiya tədbirlərinin həyata keçirilməsinə çox vaxt beynəlxalq müşahidəçilər və monitorinq missiyaları nəzarət edir. Belə nəzarət mexanizmləri razılaşmaların icrasını təmin etməyə, öhdəliklərin yerinə yetirilməsini izləməyə və mümkün pozuntuların qarşısını almağa xidmət edir.

Demilitarizasiya olunmuş zona iki və ya daha çox tərəf arasında əldə edilmiş razılaşma əsasında yaradılan, hərbi qüvvələrin yerləşdirilməsinin və döyüş fəaliyyətinin qadağan edildiyi ərazi hesab olunur. Belə zonaların yaradılması hərbi toqquşmaların qarşısını almağa, sərhədlərdə gərginliyi azaltmağa və tərəflər arasında təhlükəsizlik buferi formalaşdırmağa xidmət edir. Bu ərazilərdə ağır silahların yerləşdirilməsi, hərbi təlimlərin keçirilməsi və yeni müdafiə obyektlərinin tikintisi adətən qadağan edilir. Tarixi baxımdan demilitarizasiya müxtəlif dövrlərdə fərqli məqsədlərlə tətbiq olunmuşdur. Müharibələrdən sonra bağlanan sülh müqavilələrinin mühüm şərtlərindən biri kimi müəyyən ərazilərin hərbi statusunun dəyişdirilməsi və ya tamamilə hərbi fəaliyyətdən azad olunması nəzərdə tutulmuşdur. XX əsrdə baş vermiş dünya müharibələrindən sonra bir sıra dövlətlərin hərbi imkanlarına beynəlxalq məhdudiyyətlər qoyulmuş, bəzi ərazilər isə demilitarizasiya edilmiş zona kimi elan olunmuşdur. Bu təcrübə beynəlxalq təhlükəsizlik sistemində etimadın möhkəmləndirilməsi və yeni müharibələrin qarşısının alınması baxımından əhəmiyyətli hesab edilir. Müasir hərbi nəzəriyyədə demilitarizasiya sülhyaratma və münaqişədən sonrakı bərpa prosesinin ayrılmaz hissəsi kimi qiymətləndirilir. Silahlı qarşıdurmanın başa çatmasından sonra həyata keçirilən demilitarizasiya tədbirləri insanların təhlükəsiz yaşayış şəraitinə qayıtmasına, mülki infrastrukturun bərpasına, iqtisadi fəaliyyətin canlanmasına və dövlət idarəetməsinin normal fəaliyyət göstərməsinə şərait yaradır. Bu proses humanitar problemlərin həllinə, məcburi köçkünlərin geri qayıtmasına və sosial sabitliyin təmin olunmasına da müsbət təsir göstərir.

Müasir dövrdə demilitarizasiya beynəlxalq təhlükəsizlik siyasətinin mühüm elementlərindən biri hesab olunur. Dövlətlər arasında etimadın möhkəmləndirilməsi, silahlanma yarışının qarşısının alınması, sərhədyanı ərazilərdə sabitliyin təmin edilməsi və münaqişələrin dinc yollarla həllinə şərait yaradılması baxımından bu proses mühüm rol oynayır. Bununla yanaşı, demilitarizasiya beynəlxalq hüququn prinsiplərinə, dövlətlərin suverenliyinə və tərəflər arasında əldə edilmiş razılaşmalara əsaslanaraq həyata keçirilməlidir. Bu prinsiplərə əməl olunması prosesin səmərəli və uzunmüddətli nəticələr verməsinin əsas şərtlərindən biridir. Nəticə etibarilə, demilitarizasiya yalnız hərbi xarakterli tədbirlər kompleksi deyil, həm də beynəlxalq təhlükəsizliyin təmin olunmasına, regional sabitliyin qorunmasına və davamlı sülhün formalaşdırılmasına xidmət edən strateji mexanizmdir.

**Emil MURADLI**
**"Azərbaycan Ordusu"**

| Redaktor | Telefon | Ünvanımız | Qəzetin hesabı | | Növbətçi | |
|---|---|---|---|---|---|---|
| mayor Ceyhun CƏFƏRLİ | Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatı üzrə növbətçisi: (012) 404-76-22 | Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | 2 saylı xəzinədarlıq Kod: 200189 VÖEN: 1500444791 | "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz. | kapitan Günay TAĞIYEVA | Lisenziya № 361 Sifariş № 679 Nüsxə 3653 |